22 noyabr 2024 №87 (2152)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## COP29 yekunlaşır: nəticə nə olacaq?



Azərbaycan paytaxtında 12 gün davam edən və dünya gündəminin ilk sıralarında olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29 noyabrın 22-də işini başa vurmalıdır.

Qeyd edək ki, builki COP-un başlıca hədəfi qlobal iqlim dəyişiklikləri ilə mübarizənin maliyyətini müəyyən etmək idi. Yəni dövlətlər buna nə qədər vəsait ayıra və karbon emissiyalarını azaltmaq üçün nə qədər öhdəlik götürə bilər. Təbii ki, bu xüsusda əsas söz sənaye baxımından daha güclü (deməli, atmosferi daha çox çirkləndirən) və maliyyə imkanı daha çox olan böyük dövlətlərə, ilk növbədə, ABŞ və Çinə düşür.

Dünənədək olan açıqlamalardan belə görünürdü ki, prosesdə tam nikbinliyə elə də əsas yoxdur.

"119 ölkə özünün biomüxtəliflik hədəflərini təqdim edib. Lakin acı reallıq odur ki, həmin öhdəliklərin arxasında maliyyə dayanmır. Bizə sürətli tədbirlər və ciddi keçidlər lazımdır... Bəzi ölkələrin, o cümlədən Çin və ABŞ-nin milli səviyyədə müəyyən edilmiş töhfələri (NDC) qlobal istiləşməni 1,5 dərəcədə məhdudlaşdırmaq hədəfinə uyğun gəlmir" – bunu BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen deyib.

Onun sözlərinə görə, 2023-cü ildən bəri emissiyalar 1,3 faiz artıb: "Qlobal istilik artımı həddinin 1,5 dərəcə səviyyəsində qalmasını təmin etmək üçün hələlik götürdüyümüz öhdəlikdən uzağıq, həmçinin istixana qazlarının emissiyasında artım qeydə alınır. Biz emissiyanı azaltmasaq, 1,5 dərəcə hədəfinə nail olmayacağıq".

"Bakıda yeni iddialı iqlim maliyyəsi məqsədinə dair razılaşma əldə etməliyik. Bütün tərəflərin 1,5 dərəcə ilə uyğunlaşdırılmış yeni milli planlar təqdim etmələrini təmin etmək vacibdir. Hər bir hökumətə, eyni zamanda, emissiyaların azaldılmasını sürətləndirərək təmiz, ucuz bərpaolunan mənbələrdən və ədalətli enerji keçidindən faydalanmaq şansı vermək lazımdır" – bunu isə BMT-nin Baş katibi Antonio Quterreş bildirib. Qeyd edək ki, A.Quterreş COP29-u yekunlaşdırmaq üçün noyabrın 21-də yenidən Bakıya gəlib.

Maliyyə artımının vacibliyini vurğulayan baş katib diqqətə çatdırıb ki, maliyyə nəzarəti olmayan iqlim xaosu hamımıza zərbə vuracaq: "İndi ilkin mövqedən çıxmağın və mümkün kompromis sahələrini tanımağın vaxtıdır. Hələ də vaxtımız var. Düşünürəm ki, bu mümkündür. Əminəm ki, razılaşmaya nail olunacaq. Əsas məsələ tərəflərin ilkin mövqeyinin nə olması deyil. Əsas məsələ ambisiyalı nəticələrə gətirib çıxaracaq kompromis yollarını tapmaqdır".

## "Nəsimi": opera səhnəmizdə yeni ad

### Dahi şairin həyatı kino ekranı və balet tamaşasından sonra daha bir yaradıcı təcəssüm tapdı

Hər yeni əsərin, üstəlik, opera kimi irihəcmli səhnə əsərinin yaradılışı, ilk nümayişi özlüyündə artıq hadisədir. Bu həftə biz belə bir hadisənin şahidi olduq.





Noyabrın 20-də Heydər Əliyev Sarayında Xalq artisti, professor Siyavuş Kəriminin akademik Rafael Hüseynovun librettosuna bəstələdiyi "Nəsimi" operasının premyerası keçirildi.

Adətən, belə böyük tamaşalar hazırlananda kim bilməsə də, mədəniyyət yazarları bu məsələdən teatrsevərlərdən xeyli tez xəbər tutur və tamaşanın hazırlıq prosesindən, məşqlərindən potensial seyrçi auditoriyasını da agah edirlər. Amma bu dəfə belə olmadı. İstər kütləvi səhnə iştirakçılarının (xor, balet truppası, dəvətli "Natiq ritm" qrupu, xanəndələr və milli musiqi alətləri ifaçıları) sayı, istər müstəqil ariya oxuyan vokal partiyalarının bolluğu, demək olar ki, bütün vokalçıların ariozo və reçitativ ifa etməsi aydın göstərdi ki, opera üzərində uzunmüddətli yaradıcılıq işi aparılıb. Sadəcə, böyük kollektiv mətbuata xəbər-filan sezdirmədən bu işi yerinə yetirməyi bacarıb.





Operanın adını eşidərkən oxucumuz bir an düşünə bilər ki, əgər baş qəhrəman Nəsimidirsə, deməli, tamaşada qəzəllərin oxunduğu muğam parçaları bol olmalı, həm də əsər janrına görə, haradasa, muğam operasına yaxın olmalıdır. Bəli, tamaşada qəzəllər var, amma bəstəkar muğam operası deyil, dünya və milli musiqimizdən bəhrələnərək yalnız bir neçə məqamda milli musiqi alətlərindən əlahiddə istifadə etməklə simfonik orkestrin bütün alət qruplarının maksimal məşğul olduğu klassik opera əsəri yazıb. Tamaşadakı şeirlərin, ariyaların və digər mətnlərin müəllifi isə akademik Rafael Hüseynovdur. Çox maraqlıdır ki, Azərbaycan opera tarixində şair kimi tanınmayan bir neçə ədib çox gözəl opera librettosu ilə yanaşı, ariyaların mətnini də yazıblar. Bunlardan birincisi Məmməd Səid Ordubadi ("Nərgiz" və "Koroğlu" operalarının mətn müəllifi), hələlik isə ən sonuncusu Rafael Hüseynovdur.

Tamaşanın musiqi rəhbəri və quruluşçu dirijoru Əməkdar artist, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru Əyyub Quliyevdir. Opera əsərinin ilk dirijoru olmaq həm də bir növ həmin əsərin gələcək taleyini həll etmək deməkdir. Çünki adətən, əsərin ilk musiqi redaktəsinin müəllifi də onun ilk dirijoru olur. Bu baxımdan "Nəsimi" operasının gələcək dirijorlarının bəxti gətirib. Əyyub Quliyev özünəxas mülayim ifa və idarəetmə tərzi ilə operanın musiqi taleyini uğurla həll edib.

davamı səh. 2-də

## Yaradıcı sənayelər iqlim dəyişmələrinə necə təsir edə bilər?

### COP29-da növbəti panel



Noyabrın 21-də COP29 çərçivəsində Azərbaycan pavilyonunda "Yaradıcı müzakirələr: yaradıcı sənayelərin iqlim dəyişmələrinə təsiri" mövzusunda panel keçirilib.

Panel Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Yaradıcı Mərkəz və "Yaradıcı müzakirələr" layihəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirin iştirakçıları arasında Azərbaycan Respublikasının Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Adil Kərimli və digər qonaqlar olub.

Panelin moderatoru, startaplar üzrə tanınmış mütəxəssis Tal Katran tədbir haqqında məlumat verib. Qeyd edib ki, paneldə yaradıcılıq sənayelərinin (oyun, animasiya, film, musiqi və rəqəmsal media) iqlim dəyişikliyi və davamlılıq üzərindəki təsiri araşdırılacaq: "İstehsal prosesində davamlı müasir metodların tətbiqi, innovativ texnologiyalardan istifadə, eyni zamanda dövri dəyər zəncirləri nəzərə alınmaqla yaradıcılıq sənayeləri ətraf mühitə təsirləri azalda bilər. Bundan əlavə, bu prosesdə mədəni davranışlar da əhəmiyyət daşıyır. İqlimlə bağlı davamlı maarifləndirici tədbirlərin təşkilinə də diqqət yetirilməlidir.

davamı səh. 2-də

## "Şuşa – zirvədən uca" kitabı ICESCO tərəfindən ərəbcə nəşr edilib

ICESCO tərəfindən "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ili çərçivəsində "Şuşa – zirvədən uca" kitabı ərəb dilinə tərcümə edilərək çap olunub. Kitabın ərəbcə nəşri Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, "İRS-Heritage" jurnalı və "PAŞA Holding" MMC-nin dəstəyi ilə ərsəyə gəlib.





"Şuşa – zirvədən uca" kitabı 2022-ci ildə ölkəmizdə elan olunan "Şuşa ili" çərçivəsində hazırlanıb. Həmin ilin dekabrında Bakıda nəşrin ilk təqdimatı olub. Kitab qala-şəhərimizin Qarabağ xanı Pənahəli xan tərəfindən əsasının qoyulduğu dövrdən – 1752-ci ildən günümüzədək keçdiyi tarixə işıq salır. Nəşrdə Şuşanın mədəni həyatı, abidələri, işğal dövründə məruz qaldığı dağıntılar və azadlığa qovuşması zəngin mətn və foto-faktlarla təsvir olunub.

Noyabrın 20-də COP29 çərçivəsində ICESCO-nun pavilyonunda kitabın ərəbcə nəşrinin təqdimat mərasimi keçirilib.

Tədbirin moderatoru, ICESCO-nun Tərəfdaşlıq və beynəlxalq əməkdaşlıq sektorunun rəhbəri Anar Kərimov nəşr haqqında məlumat verib, çıxışçıları təqdim edib.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin tarixindən, mədəni zənginliyindən söz açıb: "Bu il mayın 11-də Şuşa şəhərində "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak etdik. Şuşada olarkən yeni yollar, gözəl binalar, əla hotellər və təmir edilmiş muzeylər gördük. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş digər ərazilər kimi, Şuşa şəhərində də böyük bərpa və yenidənqurma işləri həyata keçirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da Şuşanın və işğaldan azad edilmiş digər bölgələrin abadlaşdırılması və müasirləşdirilməsi işində yaxından iştirak edir".

davamı səh. 3-də

## Ölkəmiz 35-ci "Berlin Nağıl Günləri"nin qonağı olub

### Alman uşaqlar üçün Azərbaycan nağılı oxunub

Azərbaycanın Almaniyadakı Səfirliyi 35-ci "Berlin Nağıl Günləri" festivalı çərçivəsində Berlində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində tədbir keçirib. Səfirlikdən bildiriblər ki, tədbirdə Berlində təhsil alan 100-ə yaxın şagird və onların müəllimləri iştirak ediblər.

Səfirliyin ikinci katibi Günay İsfəndiyarova onlara Azərbaycan barədə məlumat verərək məktəbliləri maraqlandıran sualları cavablandırıb. Ölkəmiz haqqında qısa videoçarx nümayiş etdirilib.

Festivalı keçirən "Märchenland" təşkilatının layihə meneceri Anna Povediç çıxış edərək "Berlin Nağıl Günləri" barədə məlumat verib, Azərbaycan səfirliyinin tədbirdə iştirakına görə təşəkkürünü bildirib.

Çıxışlardan sonra Berlində fəaliyyət göstərən azərbaycanlı pianoçu Nərmin Nəcəfli məktəblilərə "Ağ göyərçin" Azərbaycan xalq nağılını oxuyub, uşaqlar üçün musiqi viktorinası təşkil edilib.

Tədbirin sonunda balaca qonaqlara Azərbaycan şirniyyatları və suvenirləri təqdim olunub.

Qeyd edək ki, dünyanın ən böyük nağıl festivalı hesab olunan "Berlin Nağıl Günləri"ndə Azərbaycan səfirliyi ikinci dəfə çıxış edir.





Beyləqanda "Sandıq" milli geyimlər studiyası
səh. 2





Bülbülün ocağında "Təbiətin rəngi"
səh. 5



Estrada-simfonik orkestrinin konserti
səh. 5

№87 (2152)
22 noyabr 2024
www.medeniyyet.az

# Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi və Dövlət Tərcümə Mərkəzi ləğv edilir

Prezident İlham Əliyev noyabrın 21-də Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikası Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, "Azərbaycan Dövlət Tərcümə Mərkəzi" publik hüquqi şəxs ləğv edilir.

Nazirlər Kabinetinə "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi ilə bağlı on gün müddətində zəruri tədbirləri görmək tapşırılıb.

Nazirlər Kabineti ləğv edilən publik hüquqi şəxslərin tərcümə və dövlət dilinin tətbiqi sahəsində funksiyalarının aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

# İranla mədəni əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli noyabrın 21-də COP29-la bağlı ölkəmizdə səfərdə olan İran İslam Respublikasının mədəni irs, turizm və sənətkarlıq naziri Səid Reza Salehi Amirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nümayəndə heyətini salamlayan Adil Kərimli ölkəmizin ev sahibliyi etdiyi belə bir mötəbər tədbirdə iştirakına görə iranlı həmkarına təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan ilə İran arasında mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlığın geniş perspektivləri var. Xüsusilə, kitabxana, muzey işi, sərgi sahəsində birgə fəaliyyətin təşviqi, eləcə də kinematoqrafiya sahəsində əməkdaşlığın qurulması, ənənəvi musiqi festival və müsabiqələrində qarşılıqlı iştirak əlaqələrin inkişafına töhfə verə bilər.

Bundan əlavə, beynəlxalq təşkilatlar səviyyəsində də əməkdaşlığın genişləndirilməsi üçün imkanlar mövcuddur. Mədəni irs nümunələrinin UNESCO-nun müvafiq siyahılarına daxil edilməsi üçün müştərək nominasiya fayllarının hazırlanması, o cümlədən mədəni sərvətlərin qanunsuz dövriyyəsinə qarşı birgə səylərin göstərilməsinin əhəmiyyəti vurğulanıb.

COP29-da iştirakından məmnunluğunu bildirən nazir Səid Reza Salehi Amiri görüşə görə təşəkkür edib. O, qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduqlarını, müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün səylərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

İranlı nazir mədəni irsin qorunması sahəsində dövlət-özəl tərəfdaşlığının zəruri olduğunu deyib. Bildirib ki, bu sahədə iki ölkə arasında təcrübə mübadiləsi aparıla bilər. Eyni zamanda Araz çayı üzərindəki Xudafərin körpülərinin müştərək bərpasının həyata keçirilməsi mümkündür.

Söhbət zamanı COP29 çərçivəsində mədəni irs və ətraf mühit məsələlərinə də toxunulub, qarşılıqlı maraq doğuran digər sahələr üzrə fikir mübadiləsi aparılıb.

Sonda Adil Kərimli iranlı nazirə xatirə hədiyyəsi təqdim edib.

# Yaradıcı sənayelər iqlim dəyişmələrinə necə təsir edə bilər?



*əvvəli səh. 1-də*

"Outra Onda Conteudo" şirkətinin direktoru Eduardo Karvalho yaradıcı iqtisadiyyat klasterlərinin idarə edilməsi ilə bağlı yanaşmalarını diqqətə çatdırıb. Deyib ki, yaradıcılıq sənayeləri daxilində innovativ tətbiqlər bu istiqamətdə prosesləri sürətləndirə bilər. Natiq həmçinin maarifləndirici sərgilər və virtual platformalar vasitəsilə karbon təsirlərinin minimuma endirilməsinə töhfə verməyin mümkün olduğunu deyib.

"İkonoTV"nin təsisçisi və baş direktoru Elizabet Markeviç yaradıcılıq sənayelərinin qlobal miqyasda iqlimə münasibətdə şüurlu davranışları təşviq etmək imkanlarından söz açıb. O, "İkonoTV"də yaradıcılığı davamlılıqla uyğunlaşdırmaq üçün tətbiq edilən strategiyaları da diqqətə çatdırıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov yaradıcılıq sənayeləri ilə bağlı təcrübələrin davamlı mənimsənilməsi və yaşıl istehsal metodlarına keçidin dəstəklənməsinin zəruriliyini qeyd edib.

Yaradıcı Mərkəz haqqında məlumat verən şöbə müdiri deyib ki, mərkəz "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, Mədəniyyət Nazirliyi tərəfindən "Yaradıcı Azərbaycan" proqramı çərçivəsində təsis edilib. Yaradıcı Mərkəz innovativ ideyaları yüksəkkeyfiyyətli məhsullara çevirməyə fokuslanaraq bacarıqların təkmilləşdirilməsi və kommersiyalaşdırma, peşəkar təlimlər, həmçinin biznes mülkiyyəti ilə bağlı ekspert xidmətləri təqdim edir. Mərkəzin fəaliyyət sahələrinə kino, animasiya, incəsənət, oyun inkişafı, musiqi, media və digər yaradıcı klasterlər daxildir.

UNICEF-in proqram mütəxəssisi Alla Tynkeviç yaradıcılıq sənayelərinin onun təmsil etdiyi təşkilatla əməkdaşlığı məsələsinə toxunub, gənc nəsillərdə ekoloji şüurlu davranışları təşviq etmək üçün görülə biləcək işlərdən bəhs edib.

Sonda panel iştirakçılarının sualları cavablandırılıb, xatirə şəkli çəkdirilib.

**Nurəddin**

# "Nəsimi": opera səhnəmizdə yeni ad

*əvvəli səh. 1-də*

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist, Akademik Opera və Balet Teatrının solisti İnarə Babayevadır. "Nəsimi" operası, səhv etmiriksə, onun ilk səhnə quruluşu deyil. Heydər Əliyev Sarayının çox böyük səhnəsində opera tamaşasına quruluş vermək, səhnəni doldurmaq asan deyil. Tamaşada həm xorun, həm də balet truppasının (bu yerdə xormeyster Əməkdar incəsənət xadimi Sevil Hacıyeva və quruluşçu xoreoqraf Əməkdar artist Yuri Lobaçova nizamlı quruluş və kollektivin sığallı çıxışına görə xüsusi təşəkkür), üstəlik, solistlərin, "Natiq ritm" qrupunun, pəhləvanların çıxış etdiyi bazar səhnəsindəki intizamlı ifa, personajların boş qalmaması üçün rolların ikinci planının dəqiq işlənməsi xanım rejissorun uğuru sayılmalıdır.





Bu yerdəcə tamaşanın daha lakonik və birxətli inkişafına xidmət edəcək bir qeydimizi çatdıraq: əsərdə Salnaməçi obrazı var ki, bu rolda Xalq artisti Nurəddin Mehdixanlı çıxış edir. Onun tamaşa başlayandan bitənədək diaqonal üzrə fərqli kulislərdən bir neçə dəfə səhnəni bölərək keçməsi və uca səsi ilə hadisələrin yöntəmini nəql etməsi sanki tamaşanın bütövlüyünü qırır. Nurəddin Mehdixanlı çox xarizmalı və təcrübəli, həm də öz istedadını səsinin ahənginə keçirməyi bacaran aktyordur. Bu səbəbdən də onun səsinin səhnə arxasından, özü də səs effektləri qatılaraq çatdırılması tamaşanın xeyrinə olardı. Üstəlik, belə priyomlar opera, hətta balet tamaşalarında da məqbul sayılır. Maraqlıdır ki, Aqşin Əlizadənin "Nəsimi" baletinin ilk quruluşunda (!) bu priyomdan istifadə edilmişdi və tamaşanın finalında səhnə arxasında şairin qəzəli səsləndirilmişdi.

İfaçılara gəlincə... Tamaşa opera əsəri üçün məqbul səhnədə oynanılmadığı üçün mikrofon ilə oxuyan vokalçı və xanəndələrin sırf vokal ifa baxımından öz partiyalarının öhdəsindən nə qədər və necə gəldiyini demək çətindir.

Əsas partiyanı Əməkdar artist Ramil Qasımov ifa edirdi. Ramil Qasımovu indiyədək milli opera və Avropa operalarında az seyr etməmişik. Həm də onun baş qəhrəmanı digər şairimiz olan "Vaqif" operasında da baş rolda görmüşük. Düzdür, yaradıcılıq baxımından Molla Pənah Vaqif və İmadəddin Nəsimi heç zaman eyni cərgədə yanaşı dura bilməz. Bununla belə, ifada oxşarlıqlar ola bilərdi, lakin Ramil Qasımovun istedadı, zəhmətsevərliyi bir tərəfdən müəlliflərdən gələn söz və musiqi vəhdəti, digər tərəfdən obrazın fərqli qarşılanmasını təmin etdi. Laməkan mütəfəkkirin vətən sevgisi, fəlsəfi düşüncəsi, əzablara dözümü Ramil Qasımovun ifasında Azərbaycandan Şərqə, Şərqdən də dünyaya yayılan düha kimi təqdim edildi.

Tamaşanın heyəti əsasən teatrın cavan vokalçıları üzərində qurulmuşdu. Dəvətli solistlər – Xalq artisti Teyyub Aslanov (Nəimi) və gənc xanəndə Kamilə Babayeva (Fatimə) obraza həm də aktyor yanaşması baxımından bir qədər zəif təsir bağışlasalar da, bunu debüt faktı kimi yaxşı qiymətləndirmək olar. Teatrın cavan və gənc vokal qüvvəsi – Əməkdar artistlər Anton Ferştandt (Əmir Teymurun vəziri), Tural Ağasıyev (Zahid), solistlər Fatimə Cəfərzadə (Sənəm), Kamilə Nəbiyeva (Fatimə), Səma Həmzəyeva (Nəsiminin anası), Mahir Tağızadə (Əmir Teymur), Taleh Yahyayev (Məlikşüarə) Fəhmin Əhmədli (Əmir Teymurun vəkili), Xəyal Hüseynov (Dərviş), Ruslan Persan (Birinci keşikçi), Rza Xosrovzadə (İkinci keşikçi), Fuad Əzizzadə (Zindan açarçısı) və Elmir Rüstəmovun (Qazı) ifası tamaşanı təsirli və yaddaqalan etdi.

***

"Nəsimi" operası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının bazasında hazırlanıb.

Nümayişdən sonra səhnəyə çıxan libretto müəllifi akademik Rafael Hüseynov tamaşanın çox yığcam maddi resurs, digər teatrların əlbisə köməyi sayəsində ərsəyə gəldiyini vurğuladı. Bu səbəbdən ifaçıların görkəmindəki bir sıra qüsurları (məsələn, məişət və baqi həyat dəyərlərindən qat-qat uca duran Fəzlullah Nəiminin gözqamaşdıran atlas əbası) görməzdən gəlirik.

Tamaşada dekor yoxdur, seyrçi hadisələri səhnənin arxa divarını tutan boyaboy videoinstalyasiyanın fonunda seyr edir ki, bu da Mədəniyyət Nazirliyinin köməyi ilə baş tutub.

***

Yazını Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında süjetini əzbər bildiyimiz tamaşaları, ilk notlarından tanıdığımız əsərləri, eyni zamanda milli bəstəkarlıq məktəbimizin yeni böyük həcmli əsərlərini dinləməyi və seyr etməyi özləyən musiqisevərlərin arzusu ilə bitiririk: biz yeni operamız "Nəsimi"ni də doğma teatrın səhnəsində, opera tamaşası üçün daha münasib ortamda və canlı səslərlə dinləməyin arzusundayıq. Hələliksə deyirik: opera səhnəmizə xoş gəldin, "Nəsimi"!

**Gülcahan Mirməmməd**

## "Nəsimiyə sevgimizi opera vasitəsilə insanlara çatdırmaq istədik"

"Nəsimi" operası yaşayacaq, hələ uzun illər Azərbaycan səhnəsində olacaq. Çünki musiqisinin gözəlliyi və onun içərisində Nəsimi ruhunun bütün parlaqlığı ilə görünməsi Azərbaycan xalqını cəzb edəcək və çox-çox illər boyu cazibəsində saxlayacaq.

Bu fikirləri Heydər Əliyev Sarayında operasının premyerası zamanı jurnalistlərə müsahibə verən yeni səhnə əsərinin libretto müəllifi, akademik Rafael Hüseynov deyib.

Bildirib ki, dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin doğulduğu və qətlə yetirildiyi ildən çox zaman keçib: "Ancaq bu cür şəxsiyyətlər gəlirlər və əbədi qalırlar. Onları nə tarixdən silmək olur, nə də mənsub olduqları millətin yaddaşından. Zaman keçdikcə belə şəxsiyyətlər rəssamların, rejissorların, bəstəkarların yanaşmasında yenidən doğularaq yaddaşlara hopurlar. Görkəmli yazıçımız İsa Hüseynov İmadəddin Nəsimi haqqında gözəl bir əsər yazdı və bizim unudulmaz rejissorumuz Həsən Seyidbəyli misilsiz bir film çəkdi və bununla Nəsimi sanki Azərbaycan insanı üçün təzədən doğuldu, təzədən qayıtdı doğma vətənə. Amma aradan böyük zaman keçir, yeni nəsillər gəlir və Nəsiminin bu xalqa daha da yaxınlaşmasına ehtiyac var. Elə bu məqsədlə də Nəsimiyə olan sevgimizi bu opera vasitəsilə yenidən insanlara çatdırmağa qərar verdik. Böyük şövqlə çalışdıq ki, daha gözəl bir əsər ortaya çıxaraq və Azərbaycan opera səhnəsini bəzəyək. Operada Nəsiminin şəxsiyyətini, yaradıcılığının dühasını tamaşaçıya çatdırmağa çalışmışıq".

Operanın bəstəkarı Xalq artisti Siyavuş Kərimi deyib: "Bu gün "Nəsimi" operasının premyerasıdır, çox həyəcanlıyam. Böyük əzmlə çalışmışıq ki, opera tamaşaçıların xoşuna gəlsin. Operada böyük mütəfəkkir Nəsimi, onun həyatında baş verən hadisələr əksini tapıb. Əlbəttə ki, bənzərsiz söz xiridarının bütün həyatını bu əsərdə əhatə etmək qeyri-mümkün idi. Amma tamaşaçı üçün maraqlı ola biləcək bir əsər hazırlamağa çalışdıq. Operada çox istedadlı ifaçılar yer alıb. İnanıram ki, tamaşaçıların xoşuna gələcək və operanın ömrü uzun olacaq".

# "Ponto-Xəzər: biomədəni irsin gücü"

## COP29-da iqlim dəyişikliyinin mədəni irsə təsiri mövzusunda daha bir toplantı

Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində noyabrın 21-də "Ponto-Xəzər: biomədəni irsin gücü" (Ponto-Xəzər Qara dəniz, Azov dənizi, Qafqaz regionu və Xəzər dənizini böyük bir coğrafi ərazi kimi ehtiva edir – red.) mövzusunda müzakirələr aparılıb. Tədbirdə mövzu ilə bağlı təqdimatlar olub.

Gürcüstan Milli Muzeyinin direktoru professor David Lordkipanidze müzakirələr zamanı çıxış edərək Azərbaycan ərazisində yerləşən palçıq vulkanlarını təbiətin möcüzəsi adlandırıb. Xəzər dənizinin önəmli rolunu vurğulayan professor deyib: "Əgər tarixə baxsaq, iqlim dəyişikliyinin mədəni irsi və hətta insanın təbiətə qarşı davranışlarını necə dəyişdirdiyini müşahidə edə bilərik. İlk insanların beyin həcminin balaca olduğu elmi təsdiqini tapıb. Zaman keçdikcə insanların inkişafı ilə bərabər, onların təbiətə və canlılara münasibəti də dəyişib".

D.Lordkipanidze ABŞ şərqşünası və arxeoloq Ceyms Henri Brestedin kəşfi barədə danışıb. "Gürcüstanın Dmanisi şəhərində tapdığı qalıqlar Afrikadan kənarda aşkar edilmiş insanların ən qədim dəlilidir və 1,8 milyon il əvvələ aiddir. 1991-ci ildəki bu kəşf bəşər tarixini yenidən yazır və insanın təkamülünə baxışımızı, ilk avropalıların həyat tərzi və ictimai təşkilatı haqqında fikirlərimizi dəyişdirir", – deyə o əlavə edib.

Mədəni İrs üzrə Avropa Birgə Proqramlaşdırma Təşəbbüsünün katibliyində layihə meneceri Shen Shangyun Mədəni İrs üzrə JPI (The Joint Programming) haqqında birgə proqramlaşdırma layihəsindən söhbət açıb. Bildirib ki, Mədəni İrs və Qlobal Dəyişiklik üzrə Birgə Proqramlaşdırma Təşəbbüsü (JPI CH) 2010-cu ildə Avropa Komissiyası tərəfindən işə salınan alət əsasında yaradılıb. Bu, Avropa Tədqiqat Bölgəsi (ERA) çərçivəsində sosial problemləri həll etmək üçün Avropadan milli tədqiqatları maliyyələşdirən təşkilatları bir araya gətirən təşəbbüsdür.

"Təbii yaşlanmadan başqa, mədəni irs bir çox təhlükələrə məruz qalır. İqlim dəyişikliyi və çirklənmə, artan urbanizasiya, kütləvi turizm, insan səhlənkarlığı, vandalizm və hətta terrorizm dünya miqyasında irs varlıqlarına meydan oxuyur. Mədəni irsi ən davamlı şəkildə qorumaq, gücləndirmək və bu təhlükələrə uyğunlaşdırmaq üçün strategiyalar, metodologiyalar və alətlər üzrə araşdırma tələb olunur. Bu problemləri həll etmək üçün JPI CH beş əsas məqsədə diqqət yetirir", – deyə S.Shangyun əlavə edib.

# Mil-Muğan regionunda ilk – "Sandıq" milli geyimlər studiyası

Mədəniyyət Nazirliyinin müəyyən etdiyi müasir və yaradıcı baxış strategiyasına uyğun olaraq, Mil-Muğan Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Beyləqan rayon Mədəniyyət Mərkəzində "Sandıq" milli geyimlər studiyası yaradılıb.

Maddi mədəniyyətin bir hissəsi olan milli geyimə tələbatın ödənilməsi, eyni zamanda Azərbaycan mədəniyyətinə xas olan xüsusiyyətləri əks etdirən milli geyimlərin təbliğ olunması və bu sahədə milli mədəni-tarixi ənənələrin yaşadılması məqsədilə yaradılmış studiya regionda bir ilkdir.




Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin bariz göstəricisi olan milli geyimlərin mütəmadi olaraq sərgilənməsi, milli geyimlərlə bağlı təbliğat işlərinin genişləndirilməsi yeniyetmə və gənclərin qədim irsə hörmət ruhunda tərbiyələndirilməsinə önəmli töhfədir.

Geyim emalatxanası kimi fəaliyyət göstərəcək "Sandıq" studiyasında tarixi ənənəmizi əks etdirən, gözəlliyi, əlvan naxışları göz oxşayan milli geyim nümunələri özəl sektorun cəlb edilməsi yolu ilə, peşəkar dizayner-dərzi tərəfindən, keçmişdən bizə məlum olan eskizlər nəzərə alınaraq tikilib icarə və ya satış yolu ilə sakinlərin istifadəsinə veriləcək.

"Sandıq" studiyası regionda mədəniyyət sahəsində dövlət-özəl sektorunun əməkdaşlığına əsaslanan ikinci layihədir.

Milli dəyərlərin qorunması, təbliği və yaşadılması məqsədilə yaradılan studiya milli geyimlərin icarəsi, satışı, xüsusi sifarişlər üzrə geyim hazırlanması, təqdimat və sərgilər, təlim və seminarlar, foto və video çəkilişləri, dizayn və məsləhət xidməti, geyim restavrasiyası kimi xidmətlər təklif edəcək.

Qeyd edək ki, Beyləqan rayon Mədəniyyət Mərkəzində "Sandıq" milli geyimlər studiyasının açılışı 26 noyabrda (saat 15:00) keçiriləcək.

# "Şuşa – zirvədən uca" kitabı ICESCO tərəfindən ərəbcə nəşr edilib

## Baş direktor: "Şuşa şəhərinin daha böyük coğrafiyada təbliğinə töhfə veririk"

əvvəli səh. 1-də

Kitab haqqında danışan baş direktor onun ərəb dilində işıq üzü görməsinin qədim Şuşa şəhərinin daha böyük coğrafiyada təbliğinə qiymətli töhfə olduğunu deyib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli çıxışında diqqətə çatdırıb ki, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi barədə qərar ötən ilin 25 sentyabrında Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında qəbul edilib. Bu ilin 11 may tarixində Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin iştirakı ilə Şuşada "İslam dünyasının mədəniyyət paytaxtı – 2024" ilinin açılış mərasimi keçirilib: "Cənab Prezidentin açılış mərasimindəki çıxışında dediyi kimi, "Biz 28 il Şuşasız yaşadıq. Bu işğala baxmayaraq Şuşa öz ruhunu – Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Şuşa işğaldan azad olunandan sonra ona qayıdanda hər birimiz bunu bir daha gördük". Bu gün Şuşada genişmiqyaslı yenidənqurma işləri aparılır. Burada əsas məqsəd 30 ilə yaxın işğalın qurbanı olmuş qədim Azərbaycan mədəniyyətinin bərpasıdır. Azərbaycan mədəniyyəti, incəsənəti, irsi bərpa olunur, insanlar öz doğma yurdlarına qayıdırlar. Bu mənada, kitab Ərəb dünyasına Şuşanın nadir mədəni və tarixi irsini kəşf etməyə imkan verəcək. Bu prosesə verdiyi dəstəyə görə Salim bin Məhəmməd əl-Malikə təşəkkürümü bildirirəm".




Nazir Azərbaycanla ICESCO arasındakı əməkdaşlığın ildən-ilə daha da möhkəmləndiyini bildirib: "Azərbaycanla bu təşkilat arasında səmərəli əməkdaşlığın bir göstəricisi də Bakıda ICESCO-nun regional ofisinin açılmasıdır. Yaxın gələcəkdə regional ofisin açılışı planlaşdırılır. Bundan əlavə, COP29 çərçivəsində ICESCO ilə IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyi arasında imzalanmış niyyət protokolu birgə əməkdaşlığımızın genişləndirilməsinə öz töhfəsini verəcək".

Adil Kərimli çıxışının sonunda kitabın nəşrində əməyi keçənlərə təşəkkürünü bildirib.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, "PAŞA Həyat Sığorta" ASC İdarə Heyətinin sədri Niyaz İsmayılov, "İRS-Heritage" jurnalının baş redaktoru Musa Mərcanlı və Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov çıxış edərək nəşrin tarixi-mədəni əhəmiyyətindən danışıblar.

Çıxışçılar nəşrin ərəbdilli oxucuların Şuşanın tarixi, mədəniyyəti, adət-ənənələri ilə tanış olması baxımından qiymətli mənbə olacağını bildiriblər.

Sonda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, "PAŞA Həyat" və "İRS" nəşriyyat evinin birgə əməkdaşlığı çərçivəsində indiyədək "Şirvanşahların minilliyi", "Kəlam və fırça", "Qədim qalanın yuxuları", "Qobustan – minilliklər kitabı", "Təbrizin sehrli nağılları", "Qədim və gözəl Qarabağ", "Məftun edən şəhər", "Bakı simfoniyası", "Daş keşikçilər", "Zəfər salnaməsi", "Qarabağ – əsrlərin salnaməsi", "Gəncə – Nizami yurdu", "Şəki – gözəlliyin sehri", "Salam, Azərbaycan!", "Qarabağın qara kitabı" və "Qarabağ – Qələbə yolları ilə", "Şuşa. Qarabağın ulduzu" və s. kitablar işıq üzü görüb.

**N.Məmmədli**

# İDEA ilə ICESCO arasında niyyət protokolu imzalanıb

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO ilə IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi əməkdaşlıq edəcək.




Noyabrın 19-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində bununla bağlı niyyət protokolu imzalanıb.

Protokolu IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik imzalayıblar.

Niyyət protokolunun məqsədi iqlim dəyişmələri ilə mübarizə sahəsində ICESCO ilə IDEA arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi, ətraf mühitin qorunmasına yönələn tədbirlərdə birgə iştirak və hər iki təşkilatın fəaliyyət istiqamətləri ilə uyğunluq təşkil edən digər müvafiq fəaliyyətlərin müştərək icrasından ibarətdir.

Hər iki təşkilat ICESCO-ya üzv dövlətlərdə ətraf mühitin mühafizəsi, torpağın deqradasiyasının qarşısının alınması, qida və su təhlükəsizliyinin təmin olunması, məlumatlandırma işlərinin aparılması, birgə tədqiqat işləri və pilot layihələrin həyata keçirilməsi, gənclərin və könüllülərin iştirakçılığının artırılması, mübadilə proqramlarının icrası, eləcə də bilik və ən yaxşı təcrübələrin paylaşılması istiqamətində əməkdaşlığa dair razılığa gəlib.

# MDB ölkələri milli kitabxanalarının onlayn konfransı

Noyabrın 20-də Rusiya Milli Kitabxanasının təşkilatçılığı ilə "Birlik dövlətləri üçün peşəkar kadrların hazırlanmasında MDB ölkələri milli kitabxanalarının rolu" adlı onlayn konfrans keçirilib.

Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov konfransda "Kitabxanaçı kadrların hazırlanmasında Azərbaycan Milli Kitabxanasının rolu" mövzusunda məruzə və təqdimatla çıxış edib.

Direktor kitabxana işi üzrə təhsil verən tədris ocaqları ilə ölkənin aparıcı kitabxanalarının sıx əlaqəsindən, Bakı Dövlət Universitetində "Azərbaycan Milli Kitabxanasının xüsusi auditoriyası"nın açılışından danışıb. Eyni zamanda Milli Kitabxana ilə BDU arasında qarşılıqlı əməkdaşlığa dair memorandumun imzalanmasından, Mədəniyyət Nazirliyinin şəbəkəsinə daxil olan kitabxanalarda KOHA Avtomatlaşdırılmış Kitabxana İdarəetmə Sisteminin tətbiqi ilə əlaqədar zona treninqlərin və kitabxanalarda onlayn xidmətlərin tətbiqinə dair mövzular üzrə treninqlərin keçirilməsindən ətraflı bəhs edib.

# Cahangirov Cahangirov adına Xorun konserti

Ölkəmizdə keçirilən COP29-la bağlı hazırlanan mədəni proqram çərçivəsində noyabrın 19-da Beynəlxalq Muğam Mərkəzində Cahangir Cahangirov adına Xorun konserti təqdim olunub.



"Sərhədsiz musiqi" adlı proqramda Cahangir Cahangirov, Emin Sabitoğlu və Polad Bülbüloğlunun əsərləri ilə yanaşı, xalq mahnılarımız, dünya xalqlarının musiqisinə xor işləmələri və s. əsərlər səsləndirildi.

Konsertdə xoru respublika və beynəlxalq müsabiqələr laureatı, yeniyetmə pianoçu Ərtoğrul Alpərtürk müşayiət edirdi. Xorun bədii rəhbəri Əməkdar müəllim Təranə Yusifovadır.

Əcnəbi musiqisevərlərin də dinlədiyi konsert proqramı alqışlarla qarşılandı.

**Lalə**

# İqlim böhranı ilə mübarizədə mədəniyyətin vasitəçiliyi: gənclər faktoru

## COP29-da daha bir panel sessiya

COP29 çərçivəsində Heydər Əliyev Fondu, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi, ICESCO (İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı) və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə noyabrın 19-da Bakıda COP29 çərçivəsində "İqlim üçün mədəniyyət. Gənclərin davranış dəyişikliyinin formalaşdırılmasına cəlb edilməsi" adlı panel sessiya keçirilib.

Vurğulanıb ki, araşdırmalar istixana effekti yaradan qazların təqribən 72 faizinin fərdi davranış və qərarların nəticələrinə aid olduğunu göstərir. Diqqətə çatdırılıb ki, nəticələrin yüngülləşdirilməsi, adaptasiya üçün maliyyə mexanizmləri, emissiyaların azaldılması istiqamətində ambisiyalı hədəflər və öhdəliklərlə yanaşı, insan davranışında qətiyyətli dəyişiklik də iqlim böhranı ilə mübarizədə vacib vasitələrdən biri kimi nəzərdən keçirilməlidir.






Tədbirdə əvvəlcə "Newman Partnership" təşkilatının təsisçisi Martin Nyuman panelin mövzusu haqqında məlumat verib. Sonra "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünün videotəqdimatı nümayiş olunub.

Paneldə ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, Mədəni Mülkiyyətin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) baş direktoru Aruna Françeska Maria Gujral, İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri xanım Dana Firas, Milli Məclisin deputatı, Heydər Əliyev Fondu Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov çıxış ediblər.

Çıxışçılar mədəniyyət layihələri və bu sahənin işçilərinin ruhlandırıcı rolundan danışıblar. Müzakirə zamanı Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu (GFCBCA) və Azərbaycanın yeni "İqlim üçün mədəniyyət" təşəbbüsü kimi beynəlxalq platformaların bu cəhdlərin nümayiş etdirilməsindəki, mədəniyyətin bütün dünyada davranış dəyişikliyinin katalizatoru kimi gücün artırılmasındakı rolu diqqət mərkəzində olub.

Çıxışçıların fikrincə, mədəniyyət hazırda fundamental davranış dəyişikliklərinin formalaşdırılmasında və modelləşdirilməsində yerli, milli, regional və qlobal səviyyələrdə mərkəzi rol oynayır. Mədəniyyətin vasitəçiliyi olmadan iqlim böhranı ilə mübarizə səyləri ciddi əngəllə qarşılaşacaq. İndiyədək iqlim dostu və iqlimə münasibətdə dayanıqlı davranışlar istiqamətində köklü dəyişikliklərin zərurətinin nəzərdən keçirilməsi üçün məhdud səylər göstərilib. Lakin hazırda bu sahədə dəyişiklik üçün əlverişli fürsət yaranıb.

Diqqətə çatdırılıb ki, son zamanlar mədəniyyət nazirlikləri, hökumətlərarası orqanların institusional nümayəndələri və QHT-lər də daxil olmaqla, üzvlərinin sayını artıran Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu (GFCBCA) COP29 zamanı onun əhəmiyyətini daha da artırıb. Bakıda Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü zamanı qrupun işi üçün texniki tapşırığın uğurla qəbul edilməsi vacib nəticələrdən biridir. COP sədrliyi dövründə Azərbaycan hökuməti "İqlim üçün mədəniyyət" təşəbbüsünü elan etməklə iqlim debatında mədəniyyətin səsinin yüksəldilməsi səylərinə dəstək göstərib.

**Nurəddin**

# COP29-da "Turizm Günü" – Bakı Bəyannaməsi qəbul olunub

## "Turizm də iqlim dəyişikliyinin qurbanıdır"



Noyabrın 20-də COP29 çərçivəsində "Turizm Günü" keçirilib. Həmin gün "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşü" də gerçəkləşib. Qeyd edək ki, COP tarixində ilk dəfə turizmə belə xüsusi yer ayrılır.

Görüşdə "Turizm üzrə Təkmilləşdirilmiş İqlim Təşəbbüsü" müzakirə edilib, 50-dən çox ölkə və 8 qeyri-dövlət təşkilatının qoşulduğu "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi" digər dövlətlərin də iştirakı üçün elan olunub.

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın xüsusi səyi nəticəsində tarixdə ilk dəfə turizm mövzusunun iqlim danışıqlarının əsas gündəliyində yer almasına diqqət çəkib: "Turizmin COP29 gündəliyinə daxil edilməsi sektor üçün dönüş nöqtəsidir. Bu, milli hökumətlərin, özəl sektorun və vətəndaş cəmiyyətinin transformativ dəyişikliyi təmin etmək üçün birlikdə işləməyə çağırışıdır. Azərbaycan COP29-un ev sahibi kimi bu mühüm dialoqa rəhbərlik etməkdən qürur duyur".

DTA sədri turizm sektorunun iqlim dəyişikliyindəki rolunun vurğulandığı COP29-un növbəti COP tədbirləri üçün davamlı irs yaratmasına və bəyannaməyə tərəf çıxan ölkələrin sayının artacağına inamını ifadə edib.

BMT Turizmin (UN-Tourism, Dünya Turizm Təşkilatı 2024-cü ildən belə adlanır – red.) baş katibi Zurab Pololikaşvili çıxışında iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün birgə səylərin vacibliyini, "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bakı Bəyannaməsi"nin sektor üçün dönüş nöqtəsi kimi bundan öncə qəbul edilən Qlazqo Bəyannaməsinə dəstək olduğunu qeyd edib: "Birlikdə turizmin təkcə iqtisadi artım üçün deyil, həm də ətraf mühitin qorunması və qlobal həmrəylik üçün qüvvə olmasını təmin etməliyik".

"Bugünkü turizm nazirləri tədbiri turizm sektorunda əməkdaşlıq və fəaliyyət istiqamətində zəmin yaratmaq üçün bir fürsətdir. Turizm də iqlim dəyişikliyinin qurbanıdır. COP29 Sədrliyi ilk dəfə turizm məsələsini iqlim dəyişikliyi kontekstində qəti şəkildə gündəmə gətirib. Bu, çox vacibdir" – bunu isə BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen deyib.

UNEP-in icraçı direktoru diqqətə çatdırıb ki, qlobal emissiyaların 8,8 faizi turizm sektorunun payına düşür və turizm sektorunun yaratdığı emissiyaların 70 faizi nəqliyyat vasitələri tərəfindən meydana gəlir. Bütün bu məqamlar turizm sektoruna yeni baxışları labüd edir, emissiyaların azaldılması imkanlarını nəzərdən keçirməyi tələb edir. Turizm sektorunun iqlim dəyişikliyi kontekstində dayanıqlığı təmin etmək üçün böyük potensialı var.

Qeyd edək ki, "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi" turizm sektorunda iqlim tədbirlərini genişləndirmək məqsədilə sektorun milli və qlobal iqlim siyasətlərinə daha yaxşı inteqrasiya edilməsini əsas hədəf kimi müəyyənləşdirib. Bəyannamə turizm sektorunda iqlim tədbirlərinin sürətləndirilməsinin təxirəsalınmaz zəruriliyini vurğulayaraq, tərəfləri emissiyaları azaltmağa və dayanıqlı turizm təcrübələrini tətbiq etməyə təşviq edir.

DTA və BMT Turizmin birgə təşkilatçılığı, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) dəstəyi ilə keçirilən tədbirdə 30-a yaxın ölkədən turizm nazirləri, turizm üzrə məsul qurumların yüksək səviyyəli rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

"Turizm Günü" çərçivəsində "Turizm sektorunun iqlim ambisiyasının artırılması – öhdəliklərdən icraya (ölçü və dekarbonizasiya)", "Turizm sektorunun iqlim ambisiyasının artırılması – öhdəliklərdən icraya (regenerasiya/adaptasiya və maliyyələşmə)", "Turizmdə təkmilləşdirilmiş iqlim fəaliyyəti: innovativ həllər və irəliyə doğru" mövzularında dəyirmi masalar və tematik təqdimatlar da keçirilib.

***

Noyabrın 20-də COP29-da keçirilən "Turizm Günü" çərçivəsində Dövlət Turizm Agentliyi (DTA) ilə BMT Turizm arasında niyyət sazişi imzalanıb. Niyyət sazişi əlaqələndirmə və tərəfdaşlıq platformasının yaradılması üçün əlverişli zəmin formalaşdırmağı, həmçinin qeyd olunan təşəbbüslə başlayan prosesin növbəti dövrdə də davam etdirilməsini təmin etməyi və turizm sektorunun azkarbonlu və dayanıqlı gələcəyə töhfə verən sahəyə çevrilməsini dəstəkləməyi hədəfləyir.

## "Tanrı quşu gəlmədi" Biləsuvar və Salyanda nümayiş etdirilib

Lənkəran Dövlət Dram Teatrının truppası Cavid Zeynallının eyniadlı dramı əsasında hazırlanan "Tanrı quşu gəlmədi" tamaşasını noyabrın 18-də Biləsuvar rayonunda nümayiş etdirib.



Biləsuvar rayon Mədəniyyət Mərkəzində nümayiş olunan tamaşanı Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, idarə və müəssisə rəhbərləri və ictimaiyyət nümayəndələri izləyiblər.

"Tanrı quşu gəlmədi" növbəti gün Salyan Dövlət Kukla Teatrında da nümayiş etdirilib.

Hər iki məkanda tamaşa maraqla qarşılanıb.

Qeyd edək ki, səhnə əsəri mənəvi xilasını keçmişdə, uşaqlığında axtaran Süleyman Əfəndiyevin faciəvi həyatından bəhs edir. Quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Aydan Əliyevadır.

Rolları Xalq artisti Qabil Quliyev (Süleyman), aktyorlar Qızılgül Quliyeva (Lamət), Saleh Əzimzadə (Mustafa), Gülər Kərimova (Aynur), Elçin Hacıyev (Toğrul), Əlizamin Abbasov (Bəxtiyar), İmaməli Əskərov (Barış) oynayırlar.

## "Təbiətin səsi" adlı sərgi açılıb

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunan "Təbiətin səsi" adlı sərgi açılıb.



Sərgidə Gəncədə fəaliyyət göstərən rəssamların, Gəncə Dövlət Filarmoniyasındakı dərnək üzvlərinin, Kəlbəcər şəhər Uşaq incəsənət məktəbinin (Gəncə şəhəri) şagird və məzunlarının əsərləri nümayiş etdirilib.

Noyabrın 25-dək filarmoniyanın Urban Mərkəzində nümayiş etdiriləcək sərginin açılışından sonra Gəncə Dövlət Filarmoniyası Xalq çalğı alətləri orkestrinin müşayiəti, Xəyal Qəhrəmanovun bədii rəhbərliyi və dirijorluğu ilə konsert proqramı keçirilib.

Konsertdə Xalq artisti Sevinc İbrahimova, Əməkdar artist Tural Abdullayev, solistlər Zəminə Mustafayeva, Samirə Hacıyeva, Samir Məmmədov "Gözəl Şuşa", "Bakı haqqında mahnı", "Doğma diyar", "Qarabağ" və "Azərbaycan" mahnılarını ifa ediblər.

## "Qırmızı kitab"a daxil edilən bitki növləri çoxaldılır

### Botanika İnstitutu ilə "AzerGold"un Daşkəsəndə layihəsi

"AzerGold" QSC tərəfindən Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu əməkdaşlarının iştirakı ilə "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsi həyata keçirilir. Layihə üzrə "Çovdar" qızıl mədəni ətrafında Azərbaycan Respublikasının "Qırmızı kitabı"na daxil edilmiş bitki növlərinin çoxaldılması icra edilib.




"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil edilən növbəti aksiya zamanı Zəngəzur itburnusu, Qafqaz dağdağanı iriyarpaq kövrək mürdəşər, şabalıdyarpaq palıd və başqa nadir ağac və bitki növlərinin kütləvi əkini həyata keçirilib.

2021-ci ildə başlanan layihə hər ilin oktyabr-noyabr aylarında nadir, nəsli kəsilmək təhlükəsində olan ağac tingi və bitki kollarının tarixən yetişdiyi ərazilərdən biri kimi Daşkəsən rayonunda, "Çovdar" mədəninin ətrafında ayrılmış geniş ərazidə həyata keçirilir.

## Armud əkmək sərfəli olacaq

Aqrar Subsidiya Şurasının qərarına əsasən, sentyabrın 1-dən 2025-ci il mayın 31-dək salınan armud bağlarının hər hektarına görə fermerlərə 8000 manat əkin subsidiyası veriləcək.



Armud bağlarına birdəfəlik əkin subsidiyasının Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan və Qarabağ iqtisadi rayonlarında dəniz səviyyəsindən 250 metrdən hündür ərazilərdə, ən azı 3 hektar sahədə salınacaq bağlara verilməsi nəzərdə tutulur. Bu kateqoriyadan olan armud bağları müasir suvarma sistemləri ilə təchiz edilməli, hər hektarda ən azı 2 450 sertifikatlı ting əkilməlidir.

Qeyd olunan tarixlərdə salınan, lakin yuxarıdakı tələblərdən ən azı birinə cavab verməyən armud bağlarına görə isə hər hektara 800 manat əkin subsidiyası veriləcək. Eləcə də 2021-ci il sentyabrın 1-dən əvvəl salınmış armud bağlarının hər hektarına görə 310 manat subsidiya ayrılacaq.

Məlumatlara görə, bu ilin yanvar-oktyabr aylarında ölkəmizdən xarici bazarlara ümumilikdə 48 milyon dollar dəyərində 75 min tonda çox alma, armud və heyva ixrac olunub.

# Ağdam Şəhəri Günü təntənə ilə qeyd olunub

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində hərbi və siyasi müstəvilərdə qazanılan qələbələr sayəsində 2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğalda olan hissəsi bir güllə belə atılmadan azad edilib. Prezident İlham Əliyevin müvafiq (2023-cü il iyulun 31 tarixli) sərəncamı ilə 20 noyabr Ağdam Şəhəri Günü kimi qeyd olunur.

Ağdamın işğaldan azad olunmasının dördüncü ildönümü və Ağdam Şəhəri Günü münasibətilə Quzanlı qəsəbəsinin girişindəki Bayraq meydanında tədbir keçirilib. Ağdam Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası rayon təşkilatının, idarə, müəssisə və təşkilatların rəhbərlərinin, şəhid ailələrinin, qazilərin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbir zamanı əvvəlcə Şəhidlər xiyabanı və Şəhidlər Abidə Kompleksi ziyarət olunub.



Bayraq Meydanında davam edən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən, 2020-ci ilin 10 noyabr tarixində Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı birgə bəyanata əsasən, Ağdam rayonunun işğal olunmuş ərazisinin 2020-ci il noyabrın 20-də Ermənistan ordusu tərəfindən boşaldılmasından, Azərbaycan Ordusunun heç bir itki, şəhid vermədən, qan tökülmədən Ağdam rayonunun işğal altındakı hissəsinə daxil olmasından danışıblar.

Tədbirin bədii hissəsində Ağdam Musiqi Kolleci "Qarabağ" instrumental ansamblının müşayiəti ilə konsert olub. Əməkdar artist Fehruz Səxavətin və kollecin müəllimlərinin ifasında xalq və bəstəkar mahnılarından ibarət musiqi nömrələri təqdim edilib.

# Uşaqlar dünyanın sevincidir

Yerlərdə "Uşaq hüquqları aylığı" (20 oktyabr – 20 noyabr) çərçivəsində bir sıra tədbirlər keçirilib.

Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Hüseyn Arifin Ev-Muzeyi və 1 saylı Folklor klubu tərəfindən "Uşaqların hüquqlarını qorumaq bizim borcumuzdur" adlı tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, 1954-cü ildə BMT Baş Məclisi bütün dünyada uşaqların rifahının yaxşılaşdırılmasına yönəldilən fəaliyyətə həsr edilən bu günü bütün dünya ölkələrinə qeyd etməyi məsləhət görüb. 1959-cu il noyabrın 20-də Baş Məclis uşaq hüquqları Bəyannaməsi, 1989-cu ilin həmin günündə isə uşaq hüquqları haqqında Konvensiya qəbul edib. Bu münasibətlə hər il noyabrın 20-si Uşaq Hüquqları Günü kimi qeyd edilir.





***

Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində rayon Heydər Əliyev Mərkəzi Mərkəzi Kitabxana ilə birgə və "Hüquqlarını bil və faydalan" mövzusunda informasiya saatı təşkil olunub.

***

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Quba rayon MKS Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən "Uşaqlar dünyanın sevincidir" adlı tədbir keçirilib.

***

Astara rayon Pensər kənd kitabxana filialında "Uşaqlar və hüquqları" mövzusunda tədbir keçirilib. Bildirilib ki, Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsi, onların inkişafı, hərtərəfli qayğı ilə əhatə olunması dövlət-uşaq siyasətinin ayrılmaz tərkib hissəsidir.

Sonda kitabxananın əməkdaşları oxucularla uşaq hüquqları ilə bağlı söhbət apararlar.





Ağstafa Dövlət Rəsm Qalereyası tərəfindən şəhər 2 saylı körpələr evi-uşaq bağçasında təşkil olunan tədbirdə çıxış edənlər uşaq hüquqlarının yaranma tarixi, milli və beynəlxalq qanunvericilik, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə ətraflı məlumat veriblər. Daha sonra uşaq və yeniyetmələrin əl işlərindən ibarət səyyar rəsm sərgisi təqdim edilib.

Uşaqlar arasında hüquqi maarifləndirmənin aparılması məqsədi daşıyan tədbirdə uşaqlara hüquqi nəşrlər haqqında məlumat verilib, ölkəmizdə uşaq hüquqlarının qorunması istiqamətində görülən işlərdən, hüquqazidd əməllərə qarşı aparılan mübarizədən danışılıb, onlara hüquqlarının pozulması hallarına qarşı mübarizə yolları izah edilib.

Tədbirdə kitabxana əməkdaşları və 7 saylı körpələr evi-uşaq bağçasının fidanları iştirak ediblər.

***

Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Dövlətimizin tamhüquqlu vətəndaşları" adlı tədbir keçirilib. Suveren dövlətimizin azyaşlı sakinlərinə hüquqları haqqında məlumatlar verilib, diskussiyalar təşkil olunub.

***

Xaçmaz rayon Mərkəzi Kitabxanasının "Uşaq hüquqları uşaqların gözü ilə" adlı məlumat saatı keçirib. Uşaqlara əmək hüquqlarının yaranma tarixi, hazırda qanunvericilikdə uşaqlar üçün nəzərdə tutulan hüquqlar, təminat və güzəştlər, dövlət tərəfindən uşaqların əmək hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə ətraflı məlumat verilib. Sonra uşaqları maraqlandıran suallar cavablandırılıb, müvafiq mövzu ilə bağlı tövsiyələr verilib. Tədbirin sonunda iştirakçılar "Uşaq hüquqlarının informasiya mərkəzi" adlı sərgi ilə tanış olublar.

# Bölgələrdə mədəni həyat

Mirzə Fətəli Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzi və "EN Group Production"un birgə təşkilatçılığı ilə İzzət Abdurahmanov adına Şəki rayon Oraban kənd tam orta məktəbinin müəllimi, həvəskar rəssam Könül Salahovanın "Könülün dünyası" adlı rəsm sərgisi keçirilib. Çıxış edənlər gənc rəssamın yaradıcılığı, incəsənətə olan həvəsindən və bacarığından söz açıblar.

Tədbirdə Şəki məktəblərinin 20-dən artıq şagirdi "Könüllülərdən könülə" müsabiqəsinə qatılaraq "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş rəsmlər çəkiblər. Qaliblər fəxri fərmanla təltif ediliblər.





***

Ağdaş Rayon İcra Hakimiyyəti və Mərkəzi Aran RMİ-nin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ağdaş rayonunda ağacəkmə aksiyası keçirilib. Rayonun icra başçısı Orxan Hüseynzadə, Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, icra hakimiyyətinin və regional idarənin məsul əməkdaşları, Ağdaş rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin işçiləri iştirak ediblər. Aksiya zamanı ümumilikdə 700-ə qədər müxtəlif növ ağac tingi əkilib.



***

Cəlilabad rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə 20 noyabr – Ağdam Şəhəri Gününə həsr olunmuş tədbir keçirilib. Bildirilib ki, işğaldan azad olunmuş Ağdam erməni vandalizminin şahididir. Ermənistan məqsədli şəkildə mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub, təhqir və qarət edib. Ağdam rayonunun işğaldan azad olunması ilə Azərbaycan həm müharibə, həm də diplomatiya müstəvisində parlaq Qələbə qazanıb.



Sonda Ağdam şəhərinin keçmişini və azad edilməndən sonrakı dövrünü əks etdirən film nümayiş olunub.

***

Masallı rayon Mərkəzi Kitabxanasında "Ailə milli varlığımızı və mənəvi dəyərləri qoruyan təsisatdır" mövzusunda dəyirmi masa təşkil olunub. Çıxış edənlər Azərbaycanın tarixən çox gözəl və zəngin ailə ənənələri olduğundan söz açaraq həmin ənənələrin gələcək nəsillərə ötürülməsinin vacibliyini diqqətə çatdırıblar. Qeyd olunub ki, milli adət-ənənələrimizə və mənəvi dəyərlərimizə əsaslanan Azərbaycan ailəsi möhkəm özüllü ailə modeli kimi cəmiyyətdə öz mövqeyini qoruyub saxlayıb.

**Hazırladı: N.Məmmədli**

## "Fantaziya" səyyar sirki Masallıda şou göstərib

Beynəlxalq şou-proqramları ilə tanınan, Azərbaycan, Ukrayna, Rusiya, Tacikistan, Tatarıstan və Özbəkistandan sirk ustalarının yer aldığı "Fantaziya" səyyar sirki Masallı rayon Heydər Əliyev Mərkəzində balacaların qonağı olub.

Əyləncəli proqramda şən klounlar, hava gimnastları, jonqlyorlar, illüziyaçı və akrobatlar müxtəlif nömrələrlə çıxış edib.

Bir-birindən maraqlı nömrələr uşaqlarda unudulmaz təəssürat yaradıb.



# Mimçilərin “Romeo və Cülyetta”sı geniş səhnəyə çıxmışdı

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində paytaxt teatrları da maraqlı repertuarla çıxış edir. Azərbaycan Dövlət Pantomima Teatrının truppası “açıq qapı” prinsipi ilə növbəti tamaşanı noyabrın 19-da Milli Gənc Tamaşaçılar Teatrının səhnəsində oynadı.

Öz səhnələrində daha minimalist məkan və təqdimat üslubuna öyrəşmiş yaradıcı kollektivin geniş səhnədə çıxışı tam anşlaqla keçdi. Hətta cərgələr arasındakı pilləkənlər, zalın sağ və solundakı əlavə oturacaqlar da dolmuşdu. Binanın həyətində hələ xeyli tamaşaçı yer tapmamaqdan gileylənirdi. Deməli, teatra maraq və gedəcək zaman var. Qalır bilet almaq. Könül istər ki, sənətsevər tamaşaçılarımız təkcə “açıq qapı” günlərində yox, elə kassa qarşısında da belə qələbəlik yaratsınlar.





Mimçilərin oyununa baxmağa gələnlər arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin nümayəndələri, eləcə də COP29-un qonaqları da vardı.

Tamaşaya gəlincə, Vilyam Şekspirin “Romeo və Cülyetta” faciəsinin pantomim yozumu kollektivin yeni işlərindəndir. Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Ceyhun Dadaşov, rəqslərin quruluşçusu Əməkdar artist Nargilə Qəribova, rəssamı Xəyyam Səmədovdur. Tamaşanın (eləcə də teatrın) bədii rəhbəri Xalq artisti Bəxtiyar Xanızadədir.

Hekayət hər kəsə bəllidir: bir-birinə düşmən olan iki ailənin övladları – Romeo və Cülyetta qarşılaşdıqları ilk anda bir-birlərinə aşiq olurlar və beləcə, kədərli sonluqla bitən əhvalatları başlayır.

Bu dəfə mövzunun emosional təsir gücü söz yox, hərəkət idi. 90 dəqiqəlik (pantomim oyunu üçün kifayət qədər uzun zaman olsa da) tamaşada mükəmməl aktyor oyunu hakim idi. Obrazları Əməkdar artist Bəhruz Vaqifoğlu (Ölüm), Elnur İsmayılov (Rahib –Həyat), Oqtay Kazımov (Romeo), Aydan Həsənova (Cülyetta), Elxan Şahaliyev (Kapuletti), Əməkdar artist Səbinə Hacıyeva (Ledi Kapuletti), Nurlan Süleymanlı (Montekki), Solmaz Bədəlova (Ledi Montekki), Əli Əlizadə (Hersoq), Əməkdar artist Nargilə Qəribova (Dayə), Nurlan Rüstəmov (Tibalt), Hilal Dəmir (Merkutsio), Cavad Nuriyev (Benvolio), Elmin Qiyaslı (Paris), Jalə Novruzova və Hüseyn İsmayılov (sakinlər) təqdim etdilər.

Yeni və köhnə nəsil mimçilərin klassik məhəbbət dramına qatmış olduğu dinamik oyun tamaşaçıların sürəkli alqışları ilə qarşılandı.

**Həmidə**

# COP29 günlərinin növbəti musiqi axşamı

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində COP29 üçün tərtib olunan repertuardan daha bir konsert təqdim edilib.

Noyabrın 19-da keçirilən konsertdə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor Xalq artisti Ağaverdi Paşayev, dirijor Əməkdar artist İlahə Hüseynova) və F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupu (xormeyster Əməkdar artist Naala Baratelia) çıxış edib.





Solistlər Əməkdar artistlər Çinarə Mütəllibova (qanun), Ramil Qasımov (tenor), Almaz Orucova (xanəndə), həmçinin xanəndələr Eldəniz Məmmədov, Rəvanə Qurbanova, Muğam televiziya müsabiqəsinin laureatları Zabitə Alıyeva və Vəfa Vəzirova, beynəlxalq müsabiqələr laureatları Taleh Yəhyayev (bariton), Fəxri Kazım-Nicat (tenor), eləcə də Aidə Rəfiyeva (kamança), Natəvan Həsənova (qanun), Sevinc Səfərova, Ulduz Məmmədova, Fariz Hüseynov (hər üçü kamança), Nərgiz Mütəllibova (fleyta) olub.

Proqramda Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səslənib.

# Mahnı teatrında Estrada-simfonik orkestrinin konserti

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə paytaxtın bir sıra teatr-konsert müəssisələri 11–22 noyabr tarixlərində ölkəmizdə keçirilən COP29-la bağlı maraqlı mədəni proqram təqdim edirlər.



Noyabrın 19-da Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı Estrada-simfonik orkestrinin konserti keçirildi.

Teatrın solistləri İlhamə Qasımova, Taleh Yahyayev, Rövşən Qəhrəmanov, Aynur İsgəndərli, Fəxri Kazım Nicat, Mədinə Kazımova ifaları ilə tamaşaçıları unudulmaz emosiyalara qərq etdi.

Konsert proqramını yerli tamaşaçılarla yanaşı, COP29-la əlaqədar ölkəmizə gəlmiş qonaqlar və turistlər də izlədilər. İfa olunan musiqi nömrələri alqışlarla qarşılandı.

Estrada-simfonik orkestrinin bədii rəhbəri Xalq artisti Salman Qəmbərov, dirijoru Əməkdar incəsənət xadimi Vasif Axundov və Elbəy Məmmədzadədir.

# Ölkəmiz Almatıda kinofestivalda təmsil olunacaq

Noyabrın 24-dən 30-dək Almatıda “Avrasiya” XVII Beynəlxalq Film Festivalı keçiriləcək. Qazaxıstan Respublikası Mədəniyyət və İnformasiya Nazirliyinin təsis etdiyi festivalın təşkili Şaken Aymanov adına “Qazaxfilm” Milli Kinostudiyasına həvalə olunub.

Festivalda Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Türkiyə, İran, Belarus və Rusiya təmsil olunacaq. Budəfəki proqrama miqrasiya və şəxsiyyət axtarışının aktual mövzularını qaldıran ekran əsərləri daxildir. Bundan əlavə, festival çərçivəsində prodüserlik, ssenaristlik və kinematoqrafiya üzrə ustad dərsləri təşkil olunacaq.

Azərbaycan festivalda Mədəniyyət Nazirliyinin dəstəyi ilə çəkilən “Məryəm” filmi ilə təmsil olunacaq. Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının TRT və “Sinema evi” ilə müştərək istehsalı olan filmin ssenari müəllifi və rejissoru Elçin Musaoğlu, prodüserləri Fariz Əhmədov, Suat Köçər, Elçin Musaoğlu, quruluşçu operatoru Orxan Abbasov, quruluşçu rəssamı Zaur Abdullayev, bəstəkarı Azər Hacıəsgərlidir.

Ekran əsərinin süjet xətti Məryəm adlı qızın dünyasını dəyişmiş atasını görmək üçün uzun illər sonra Azərbaycana gəlişi üzərində qurulub. Rolları Xalq artisti Nurəddin Mehdixanlı, Əməkdar artistlər Ayşad Məmmədov, Qəmər Məmmədova, aktyorlar Təhminə Rafaella, Zaur Şəfiyev, Ərtoğrul Kamalov və başqaları oynayır.

**Lalə**

# “Dədə Qorqud” kamera orkestri İstanbul səhnəsində

## Azərbaycanın Zəfərinə həsr olunan konsert

Azərbaycanın Qarabağ Zəfərinin dördüncü ildönümü münasibətilə İstanbuldakı Süreyya Opera Teatrında (Kadıköy bələdiyyəsi) “Dədə Qorqud” kamera orkestrinin konserti keçirilib.



Konsertdə orkestri tanınmış dirijor, Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professor Yalçın Adıgözəlov idarə edib. Solist dünyaşöhrətli fleyta ifaçısı, Türkiyə Prezidenti Administrasiyasının ilk mədəniyyət və sənət mükafatçısı, UNICEF tərəfindən “Türkiyə – xoş niyyət elçisi” elan edilən Şəfiqə Kutluer olub.

Qeyd edək ki, Şəfiqə Kutluerin təşəbbüsü ilə bu il 15-cisi keçirilən “Şərq Qərblə görüşür” festivalı Azərbaycanın Zəfərinə həsr olunan musiqi axşamı ilə açılıb.

Mədəniyyətlərarası Əlaqə Dərnəyinin (rəhbəri azərbaycanlı vəkil Nərgiz Attar) himayəsi, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, eləcə də Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin dəstəyi ilə təşkil olunan konsert proqramında Azərbaycan və Türkiyə bəstəkarlarının əsərləri yer alıb.

Qeyd edək ki, Yalçın Adıgözəlov və Şəfiqə Kutluerin iştirakı ilə “Dədə Qorqud” kamera orkestrinin növbəti konserti Ankarada Türkiyə Prezidenti Administrasiyasının Simfonik orkestr salonunda keçiriləcək.

# “Təbiətin rəngi”

## Bülbülün ocağında COP29 münasibətilə sərgi

Bülbülün Memorial Muzeyində Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının birgə təşkilatçılığı ilə COP29-a həsr olunan “Təbiətin rəngi” adlı sərgi açılıb.



Sərgidə İncəsənət Gimnaziyası Təsviri və tətbiqi sənət şöbəsinin şagirdləri Zümrüd Məmmədova, İnci Salmanlı, Nəzrin Əliyeva, Əminə Hidayətli, İlya Saryov, Nərgiz Qurbanova, Nilay Məmmədova, Minarə Abdullayeva, Sofiya Qurbanova, Gülnaz Cəfərli, Suel Babazadə, Davud Vəliyev, Murad İsayev və Selin Mikayılovanın əl işləri nümayiş etdirilib.

“Təbiətin rəngi” sərgisi noyabrın 25-dək davam edəcək.

# Filarmoniya bağındakı royal və qala-şəhərin melodiyası



Metronun “İçərişəhər” stansiyasından çıxıb Filarmoniya bağına tərəf addımlayıram. Uzaqdan pianoda ifa Elza İbrahimovanın “Gedək üzü küləyə” mahnısının sədası qulaqlarıma çatır. Həzin külək royalın səsini şəhərin küçələrinə səpələyir. Səs hərdən daha yaxından, hərdən də uzaqdan gəlir.

Üzüaşağı getdikcə səs daha aydın eşidilir. Məlum olur ki, görkəmli bəstəkarın məşhur nəğməsi Filarmoniya bağında açıq səma altındakı royaldan pərvazlanır. Bakı Abadlıq Xidmətinin (BAX) illər öncə bu bağda quraşdırdığı royal.

Alətin yanına çatanda ifaçı artıq Tofiq Quliyevin əsərinə keçid etmişdi... Elə oradaca düşünürəm ki, BAX, yəqin ki, bu royalı şəhərin mərkəzində quraşdırarkən “sənət gündəlik həyatda olmalıdır” devizini əsas götürüb. Bəlkə də bu royal Bakının bineyi-qədimdən mədəniyyət paytaxtı olmasına işarədir. Yaxud da şəhərimizdə ifaçılıq yolunda ilk addımlarını atanlar üçün musiqi alətinin əlçatan olması məqsədi daşıyır.

Əslində, bu təcrübə bir sıra ölkələrin böyük şəhərlərində mövcuddur. Bəzi ölkələrdə dövlət tərəfindən, bəzilərində isə yerli mesenatların təşəbbüsü ilə park və xiyabanlara alətlər qoyulur.

Yeri gəlmişkən deyək ki, paytaxtımız 2019-cu ildən UNESCO-nun “Yaradıcı Şəhərlər” Şəbəkəsinə daxil edilib və bu royalı da yaradıcı şəhər mühitinin bir atributu kimi qəbul etmək olar. Çünki gün ərzində onlarla insan bu royalda öz bacarığını nümayiş etdirərək açıq hava konserti ab-havası yaratmağa çalışır. İxtisasca musiqiçi olan da var, həvəskar olan da. Günün istənilən saatında, yay-qış fərq etməz, paytaxt sakinləri və şəhərimizin qonaqlarının buradakı ekspromt konsertlərdən həzz almaq imkanı var. Royaldan hətta gecə saatlarında da istifadə mümkündür. Hərdən yağışlı günlərdə biz royalın örtülərək yağışdan qorunduğuna şahidlik edirik.

BAX-ın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Lalə Əliyeva deyir ki, Filarmoniya bağına qoyulan elektroroyal məhz açıq havada istifadə etmək üçün hazırlanan, xüsusi proqram təminatına malik alətdir. “Cadenza” markalı royallar həm elektriklə, həm də günəş enerjisi ilə işləyir. Bu isə əlavə enerji xərclərinin qarşısını almaqla yanaşı, həm də alətlərin istənilən yerə daşınmasına şərait yaradır. Klassik pianodan fərqli olaraq bu aləti kökləməyə də gərək yoxdur. Elektroroyal rütubətə və ultrabənövşəyi şüalara davamlıdır. Bu o deməkdir ki, ilboyu – yağışda, qarda, qızmar günəş altında da həmin alətdə musiqi ifa etmək mümkündür.

Söz düşmüşkən onu da deyək ki, BAX-ın bu diqqətəlayiq təşəbbüsünün davamı olaraq Xankəndi şəhərindəki mərkəzi parkda da belə bir royal qoyulub. Şəhərin bərpa, təmizlik və yaşıllaşdırma işlərini həyata keçirən qurum doğma yurda qayıdacaq sakinlərin mədəni istirahətini də diqqətdə saxlayır.

...Həmin gün Bakı səmasında günəş arabir gözə dəysə də, bağdakı skamyalarda insanlar oturub pianoda ifa edən gənci dinləyirdilər. Yolüstü ötən gənclər və yaşlı insanlar da foto və video çəkiliş edirdilər. Sosial şəbəkələrdə də bu məkandan teztez paylaşımlara rast gəlirik.

Royalda ifa edən gənc nədənsə özünü təqdim etmək istəmir. Deyir ki, sadəcə, burada royalı görəndə ifa etmək arzusu yarandı. İfaya başlayanda isə skamyada əyləşənlərdən əlavə buradan ötənlərin ayaq saxlayıb dinləməsi onu çox sevindirir. Peşəkar musiqi ilə məşğul olmasa da, çalğısı bəyənilir və yenidən ifa etməsini xahiş edirlər.

Alətdə ifa etmək üçün növbə gözləyən başqa gənclər var. Birinin əlində nağara da görürəm. Musiqi məktəbində təhsil alan gənclər burada ifa edib tamaşaçı alqışı almaq istəyirlər. Çünki bu çıxışlar onlara böyük konsert hissi yaşadır. Elə bu an royalda Üzeyir bəyin “Sevgili canan” romansı səslənir və yaşlı bir kişi alətin önündə dayanıb vokal imkanlarını nümayiş etdirir. Bundan gözəl nə var ki? Yaşlı, cavan hər kəs ifanı alqışlayır.

İzləyici olan Ramazan dayı deyir ki, Bərdədən gəlib, bir neçə gündür Bakıdadır. Belə bir mənzərəni, xoş atmosferi izləmək ona hədsiz müsbət aura bəxş edir. Artıq iki gündür yolüstü buradan keçəndə ayaq saxlayıb ifaları dinləyir. Sevindirici hallardan biri də odur ki, hər kəs alətə ehtiyatla yanaşır.

Gənc həmsöhbətim isə Tibb Universitetində təhsil alır, asudə vaxtlarında fortepianoda ifa edir. Qaldığı kirayə evdə bu imkan olmadığı üçün vaxt edən kimi gəlib bu alətdə ifa edir, barmaqlarını yadırğamağa qoymur.

Bir sözlə, bu royalda hər kəs ifa edə bilər. İfaçılıq yolunda ilk addımlarını atan da, peşəkarlar da. Peşəkar demişkən, onu da qeyd edim ki, bir müddət əvvəl Əməkdar artist Emil Əfrasiyab da bu royalda ifa edərək instaqram səhifəsində paylaşım etmişdi və onunla birlikdə gənc istedadlar Rauf Hacıyevin “Azərbaycanım” mahnısını səsləndirmişdilər.

Qədim İçərişəhərin qala divarları ilə əhatələnən bu royalda ifa olunan əsərləri qala-şəhərin melodiyası kimi də dəyərləndirmək olar. İnanıram ki, bu royaldan digər böyük şəhərlərimizdə də qoyulacaq və mədəni mühitə bir canlılıq gətirəcək...

**L.Azəri**

## Rəsulzadənin Polşa-Azərbaycan əlaqələri haqqında kitabı

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsinin müdiri filologiya elmləri doktoru Gülər Abdullabəylinin tərcüməsində Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan müstəqillik uğrunda mübarizədə" (Polyak-Azərbaycan əlaqələri) kitabı rus dilində işıq üzü görüb.

İnstitutdan bildirilib ki, kitab 1938-ci ildə Varşavada çap olunub. Prezident İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi haqqında sərəncamına uyğun olaraq nəşr edilən kitabın elmi redaktoru AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir. Əsəri polyak dilindən tərcümə edən və ön söz yazan Gülər Abdullabəyli həm də Azərbaycan-Polşa Elmi-Mədəni Cəmiyyətinin sədridir. Nəşrdə əsərin polyak dilində olan əslinin də surəti yer alıb.

## "Badkubə vaqiəsinin tarixi" çapdan çıxıb

### Ermənilərin Bakıda törətdiyi qırğınlardan bəhs edir

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə "Mişkat" təxəllüslü şairin "Badkubə vaqiəsinin tarixi" əsəri transfoneliterasiya olunaraq kitab şəklində nəşr olunub.

Əsəri institutun Biblioqrafiya şöbəsinin böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyi İrs komissiyasının sədri Sona Xəyal transfoneliterasiya edib nəşrə hazırlayıb.

Kitabda 1905–1906-cı illərdə Bakıda baş verən erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdiyi qırğınlardan bəhs edilir.

Kitabda bir çox mətləblərə toxunulur, tarixi hadisələr xatırlanır, bəzi peyğəmbərlərin həyatından söz açılır. Hikmətli fikirlərlə bədnam ermənilərə tarixdən ibrət almaq tövsiyə olunur.

Yeni nəşrin redaktoru Əlyazmalar İnstitutu Farsdilli əlyazmaların tədqiqi şöbəsinin böyük elmi işçisi Rauf Şeyxzamanlı, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru Samirə Əliyeva və Qutiyera Cəfərova, ön sözün müəllifi Sona Xəyaldır.

Qeyd edək ki, şair Mişkat "Sülhnamə" (1905), "İttihadiyyə" (1906), "Səyahəti-ənfüsiyyə" (1906), "Mərifətnamə" (1907) və "Şərafətnamə" (1908) əsərlərinin də müəllifidir.

## Azərbaycan-Almaniya birgə ekspedisiyası Qarabağda



AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu ilə Almaniya Arxeologiya İnstitutu arasında bağlanmış memorandum üzrə "Qarabağ düzənliyinin arxeoloji tədqiqi" layihəsi çərçivəsində tədqiqatlar davam edir.

2022-ci ildən Qarabağ düzənliyində Neolit və Xalkolit dövrü yaşayış məskənlərinin tədqiqini ehtiva edən birgə layihənin Azərbaycan tərəfdən rəhbəri Xəqani Alməmmədov, Almaniya tərəfindən Mark İserlisdir.

İnstitutdan bildirilib ki, bu il arxeoloji qazıntılar Ağcabədi rayonunun Taynaq kəndi ərazisində yerləşən Canavartəpə Xalkolit dövrü yaşayış məskənində aparılıb. Qazıntılar zamanı qazma tipli yaşayış və təsərrüfat qurğuları, dövrün mədəni, iqtisadi, təsərrüfat həyatını özündə əks etdirən yüzlərlə maddi mədəniyyət nümunəsi aşkarlanıb. Ən çox maraq doğuran nümunələr kretulalardır. Kretulalar getdikcə mürəkkəbləşən yazıyaqədərki inzibati sistemdə uçot və təsdiqləmənin təminatı üçün tətbiq olunurdu və onlara Cənubi Qafqazın həmin dövr abidələri içərisində ilk dəfə təsadüf edilib.

Abidəni maraqlı edən digər cəhət onun xronoloji çərçivəsi ilə bağlıdır. Müvafiq analizlərinin nəticələrinə əsaslanaraq Leylatəpə mədəniyyətinə aid ən gec mərhələnin (e.ə. 3920–3430-cu illər) məhz burada qeydə alındığı söylənilə bilər.

Qeyd edək ki, layihə çərçivəsindəki birgə tədqiqatlar iki problem mövzu üzrə aparılır. "Qarabağın Neolit dövrü abidələrinin nisbi və mütləq xronologiyası" mövzusu üzrə tədqiqatlar çərçivəsində 10 abidədən götürülmüş nümunənin İsrail, Almaniya və Polşanın müvafiq laboratoriyalarında C14 analizləri aparılıb və Bayes xronologiyası əsasında Qarabağın Neolit dövrü məskunlaşma dinamikası modelləşdirilib. Tədqiqatlar e.ə. VI minillikdə Qarabağ ərazisində yerli ekoloji xüsusiyyətlərin dərk edilməsinə imkan yaradıb.

İkinci – "Qarabağın Leylatəpə fenomeni" mövzusu üzrə tədqiqatlar isə regiondakı bu mədəniyyətə aid abidələrin öyrənilməsi məqsədi daşıyır. Tədqiqat üçün Leylatəpə və Canavartəpə Xalkolit dövrü yaşayış məskənləri seçilib. İlkin nəticələr olaraq əvvəlki illərdə aparılmış arxeoloji qazıntılardan əldə edilən nümunələr əsasında Qarabağda bu mədəniyyətin mütləq xronoloji çərçivəsi müəyyənləşdirilib, saxsı məmulatı statistik və texnoloji baxımdan öyrənilib, paleoantropoloji, paleozooloji, paleobotanik və s. tədqiqatlar aparılıb.

# Lev Tolstoya məktub yazan azərbaycanlı şair



XIX əsrin sonlarında çar ordusunun topoqraf-generalı İbrahim ağa Vəkilov Yelena Yefimova adlı bir rus qızı ilə ailə qurur. Ancaq dini mənsubiyyət fərqləri üzündən uzun illər nikahlarını rəsmiləşdirə bilmirlər... Günlərin birində Yelena qəzetdə oxuyur ki, bir azərbaycanlı şair qraf Lev Nikolayeviç Tolstoya məktub yazıb. O, məşhur yazıçıdan "İnsana çoxmu torpaq lazımdır?" adlı əsərini Azərbaycan dilində nəşr etmək üçün icazə istəyib… Yelena məlumatı İbrahim ağaya danışır. Deyir ki, biz də Tolstoya məktub yazaq, ondan məsləhət alaq: övladlarımız müsəlmanlığı qəbul etsin, yoxsa pravoslav kimi qalsın.

Onların Tolstoya məktubu və aldıqları cavab başqa bir yazının mövzusudur. Bu yazıda isə görkəmli rus yazıçısına məktubla müraciət etmiş qələm sahibindən söhbət açacağıq. O, dövrünün tanınmış şairi Abbas ağa Nazir (Qayıbzadə) olub. Lirik, satirik şeirləri, qəzəlləri, mənzumə və rübailəri ilə ədəbi xəzinəmizə töhfə verən, maarif-mədəniyyət carçısı kimi də tanınan şairi anadan olmasının 175 illiyi münasibətilə yada saldıq.

Abbas ağa Mirzə Nəbi oğlu Qayıbzadə 1849-cu ildə Qazax qəzasının Salahlı kəndində ziyalı ailədə dünyaya göz açır. Atası oğlunun təlim-tərbiyəsi ilə özü məşğul olur. O, erkən çağlardan poeziyaya maraq göstərir. İstedadlı gənc kimi Tiflisə oxumağa gedir. Orada üçillik təhsilini başa vurduqdan sonra Salahlıya qayıdır. Bir müddət kənddə müəllimlik edir. Sonra Tiflisdə Zaqafqaziya Ruhani İdarəsində işləyir.

Abbas ağa yaradıcılığa da vaxt ayırır. Görkəmli ədib Cəlil Məmmədquluzadənin məsləhəti ilə Əbülqasım Firdovsinin "Şahnamə" əsərindən "Rüstəm və Söhrab" hekayətini dilimizə tərcümə edir. Tərcümə 1908-ci ildə "Qeyrət" mətbəəsində məşhur rəssam İozef Rotterin rəngli şəkilləri ilə nəşr edilir. Xalq şairi Səməd Vurğun sonralar Abbas ağanın tərcüməsini yüksək qiymətləndirərək yazıb: "Mən "Rüstəm və Söhrab"ın o dövrdəki ilk tərcüməsini necə maraq və məhəbbətlə oxuduğumu yaxşı xatırlayıram...".

Abbas ağa Nazirin yaradıcılığı görkəmli maarifçi, ədəbiyyatşünas Firidun bəy Köçərlinin də diqqətini çəkir, o, gənc şairlə məktublaşır. F.Köçərli 1911-ci il oktyabrın 10-da Abdulla Şaiqə göndərdiyi məktubunda ondan da bəhs edir: "Dağların vəsfində Qazax şairlərindən Mustafa ağa Arifin, Kazım ağa Salik və Abbas ağa Nazirin gözəl şeirləri var ki, məcmuəmə daxil edilib... Abbas ağa Nazirin "Bəyani-halım" namında xeyli məğrub bir əsəri var. Əgər oxusanız, xoşunuza gələr. Əfsus ki, çap olunmayıb. "Rüstəm və Söhrab"ın tərcüməsi, "Millətə xitab", "Molla və şeytan", "İnsana çoxmu torpaq lazımdır?" və qeyriləri. Abbas ağa çox qabil və xoştəb şairdir. Amma çoxları onu tanımır, o cəhətə ki, özünü nəzərə verən adam deyil".

Abbas ağa Nazirin 60 yaşı münasibətilə F.Köçərli bir məqalə yazır və onu millət və Vətən üçün atəşin tərənələr oxuyan həqiqi şair adlandırır: "Həqiqi şair... millət və Vətən yolunda canlar fəda etmək lazım isə Vətən oğullarının ürəyinə yandırıcı od salıb onları hər qisim fədakarlığa və cannisarlığa şövqməd eləsin".

F.Köçərli "Balalara hədiyyə" kitabına A.Nazirin "Vətən", "Qarayazı meşəsinin vəsfi və ovçuların zülmü" və digər şeirlərini daxil edib.

Yazının əvvəlində qeyd etdiyimiz kimi, Abbas ağa dahi rus yazıçısı Lev Tolstoyla məktublaşıb və "İnsana çoxmu torpaq lazımdır?" əsərini dilimizə tərcümə edib.

Araşdırmalardan məlum olur ki, o, 24 fevral 1909-cu ildə L.Tolstoya ünvanladığı məktubda yazır: "Hörmətli cənab qraf Lev Nikolayeviç! Mən bir müsəlman şairi kimi öz müsəlman həmməzhəblərimi Sizin əsərinizlə tanış etmək istədim. "İnsana çoxmu torpaq lazımdır?" başlıqlı əsərinizi tatar-Azərbaycan dilinə nəzmlə tərcümə etmək xoşbəxtliyinə nail oldum. Ona görə də Sizdən izhari-hörmətlə xahiş edirəm ki, yuxarıda göstərilən tərcümənin nəşrinə və yayılmasına lütfən icazə verəsiniz. Hörmət və ehtiramla: Abbas ağa Qayıbov".

Çox keçmir, Tolstoydan cavab məktubu gəlir: "Mən artıq iyirmi ilə yaxındır ki, arzu edənlərin hamısına mənim 1881-ci ildən sonra yazdığım bütün yazıları istənilən dilə tərcümə və yenidən nəşr etmək ixtiyarı vermişəm. Odur ki, üzərinizə götürdüyünüz zəhmət üçün Sizə yalnız təşəkkür edə bilərəm. Lev Tolstoy".

A.Nazir maarif və mədəniyyət mövzusunda da əsərlərin müəllifidir. O, təhsilin, elmin səmərəsindən bəhs edərək yazır ki, harada məktəb yoxsa, ora virandır. Abad o yerdir ki, məktəbi var. Hər kim bəxtli olmaq istəyirsə, səadət axtarırsa, məktəbə getsin. İnsanı zülmətdən azad edən də, qəflətdən oyadan məktəbdir.

*Çoxdur elmin gözəl-gözəl əsəri,*
*Qayəsizdir şirin-şirin səməri.*
*Hər kimin yoxdur elmdən xəbəri,*
*Günü bişək keçər yaman, oğlum...*

1912-ci ildə Tiflisdə M.F.Axundzadənin 100 illiyi ilə bağlı Gürcü Zadəganlar Cəmiyyəti Teatrında tədbir keçirilir. F.Köçərli yubiley gecəsini A.Nazirin böyük dramaturqa həsr etdiyi şeir ilə açır.

Abbas ağa Naziri bizdən çox-çox uzun illər ayırır. Ancaq onun günümüzə gəlib çatan "Vətən tərənəsi", "1905-ci il inqilab cərəyanına dair", "Nəsihət", "Məktəb", "Könül, aldanma çərxa, bivəfadır", "Bax", "Təxmisi-qəzəli-Füzuli Bağdadi", "İki qardaş", "Qış vaxtı varlı və füqəra güzəranı", "Millətə xitab", "Ədəbiyyat" və s. şeirləri bu gün də öz poetik əhəmiyyətini qoruyub saxlayır.

Bütün varlığı ilə ədəbiyyata, poeziyaya bağlı olan şair ömrünün müdrik çağlarında "Bax" adlı qəzəlində yazır ki, tale məni övlad qismətindən məhrum etdi. Ancaq bunun üçün o qədər də qəm etmirəm. Çünki min bir əziyyətlə ana dilimə çevirdiyim "Rüstəm və Söhrab" mənim oğlumdur.

Maarifçi nəslin yetişməsində də fədakarlıq göstərmiş Abbas ağa Nazir 30 dekabr 1919-cu ildə, 70 yaşında vəfat edib. Dünyaya göz açdığı Salahlı kəndində dəfn olunub.

**Savalan Fərəcov**

### Uğur sorağında

# Gənc rəssam: "Daha çox portret janrına maraq göstərirəm"






Rəssamlıq insanın daxili aləmini, hisslərini, düşüncələrini və həyatına dair təcrübələrini rənglər vasitəsilə ifadə etmək sənətidir. Burada rənglər əhəmiyyətli olduğu qədər müəllifin estetik zövqü, mövzuya yanaşması da önəm kəsb edir.

"Uğur sorağında" rubrikasında ötən il Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən Uşaq İncəsənət Festivalının (UİF) mükafatçıları olmuş istedadları tanıtmağa davam edirik. Bu dəfə yeniyetmə rəssam Zəhra Ağayeva haqqında söz açırıq.

Zəhra Amid qızı Ağayeva 2008-ci ildə İsmayıllı rayonunun Mican kəndində anadan olub. İsmayıllı şəhər İsmayıl Həsənov adına 1 nömrəli tam orta məktəbin 11-ci sinfində təhsil alır. Eyni zamanda rayondakı Fazil Əzimov adına Uşaq incəsənət məktəbi rəssamlıq şöbəsinin məzunudur.

Rəssamlığa kiçik yaşlarından maraq göstərib. Deyir ki, ilk dəfə rəssamlıq qabiliyyətini 9 yaşında anasının portretini çəkərək anlayıb: "Bu sahədə qabiliyyətimi görən valideynlərim məni uşaq incəsənət məktəbinə yazdırdılar. Beləcə, rəssamlığın sirlərini öyrənməyə başladım".

Rəssamların mövzu və maraq dairəsi kimi, janr seçimi də fərqlidir. Zəhra daha çox portret janrına maraq göstərir. Bu sırada tarixi Zəfərimizin qəhrəmanlarının, şəhidlərin portretləri xüsusi yer tutur. Onların şücaətini, Vətən sevgisini, simalarındakı işığı təsvir etməyə çalışır: "Şəhidlərimizə ehtiram, onların analarına olan yanğım məni qəhrəmanlarımızın rəsmlərini çəkməyə sövq etdi. Onların rəsmini çəkdikdən sonra məzarlarını ziyarət edir və əsəri ailələrinə təqdim edirdim. Bu addımım mənə qürur hissi verir. İsmayıllı rayonundan olan 10-dan çox şəhidin rəsmini çəkib ailələrinə təqdim etmişəm".

Zəhra rayon və ölkə miqyaslı tədbir və müsabiqələrdə iştirak edib. Ən böyük uğurlarından biri ötənilki Uşaq İncəsənət Festivalında olub: "Bu festival mənim üçün xüsusilə yaddaqalan oldu. Final mərhələsində hər kəs 5-10 rəsm gətirdiyi halda mən bir rəsmlə təmsil olundum – Prezidentimiz İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın portreti ilə. Münsiflər heyətinin qərarı ilə 14-17 yaş kateqoriyasında I yerə layiq görüldüm".

Zəhra bu il türkmən şairi Məhtimqulu Fəraqinin 300 illiyi ilə əlaqədar "Türk dünyasının mədəniyyət paytaxtı" Anev şəhərində onlayn keçirilən beynəlxalq müsabiqədə və TÜRKSOY-un təşkilatçılığı ilə Türkmənistanın paytaxtı Aşqabadda onlayn gerçəkləşən "Türk dünyası gənc rəssamların gözü ilə" müsabiqəsində I yeri qazanıb.

Gənc rəssam dizayn sahəsinə maraq göstərir. Deyir ki, dizayner işi onun uşaqlıqdan xəyalıdır.

Anası Gülşən Erdoğmuş bu sənətə doğru ilk addımlarından ona dayaq olduğunu bildirir: "Zəhranın rəssamlığ qabiliyyətini 5-6 yaşlarında hiss etdim və onu rəssamlıq kursuna apardım. Sonra incəsənət məktəbində təhsil aldı. Çox şükür, bizim ümidlərimizi doğruldur və bu sahədə çox həvəslə irəliyə addımlayır".

Biz də Zəhraya gələcək fəaliyyətində uğurlar arzulayırıq.

**Nurəddin**

### Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (28)

Bu gün Azərbaycanın mədəni irsi, zəngin incəsənəti dünyanın müxtəlif ölkələrində təbliğ edilir, sərgilər, konsertlər, təqdimatlar keçirilir. Dövlət müstəqilliyimizin olmadığı dövrdə də, keçmiş Sovet İttifaqının nisbətən məhdud şərtləri çərçivəsində də Azərbaycan mədəniyyəti dünyada tanıdılırdı.

Mətbuat xronikasından növbəti seçmələrimizin ikisi bu barədədir. "Kommunist" qəzetinin səhifələrində 41 il əvvələ qayıdırıq. Daha bir seçmə isə o vaxt olduğu kimi, bu gün də aktual olan mövzu – kitab və mütaliənin təbliği barədədir. Materiallarda mövcud orfoqrafiya saxlanılıb.

### Azərbaycan rəssamlarının sərgisi

Suriya paytaxtında Sovet Azərbaycanı rəssamlarının əsərlərinin sərgisi açılmışdır. Sərgidə tarixi mövzulu əsərlər, sovet respublikasının təbiətinin gözəlliyini əks etdirən mənzərələr, rəngkarlıq və heykəltəraşlıq portretləri göstərilir.

Ekspozisiyanın təntənəli açılışı mərasimində Suriya Ərəb Respublikası Mədəniyyət və Milli İstiqamət Nazirliyinin məsul işçiləri, yerli ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Dəməşq mətbuatının yazdığına görə, sərgi paytaxtın sakinlərində böyük maraq doğurmuşdur. Mətbuat Azərbaycan sənətkarlarının əsərlərinin yüksək bədii səviyyəsini qeyd edir.

### Lüksemburqda Sovet İttifaqı günlərini Azərbaycan təmsil edir

Lüksemburqda ənənəvi Sovet İttifaqı günləri açılmışdır. Bu dəfə Sovetlər ölkəsini Sovet Azərbaycanı təmsil edir.

Azərbaycan KP MK katibi, SSRİ Ali Sovetinin deputatı H.Ə.Həsənov başda olmaqla nümayəndə heyəti şənliklərə gəlmişdir. Nümayəndə heyətinin üzvləri bir həftə ərzində müxtəlif tədbirlərdə, Lüksemburq ictimaiyyəti ilə görüşlərdə iştirak edəcəklər. SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərliyi ilə Azərbaycan Dövlət mahnı, musiqi və rəqs teatrı artistlərinin truppası ölkənin konsert salonlarının səhnələrində çıxış edəcəkdir.

A.S.Puşkin adına mədəniyyət mərkəzində uşaq rəsmləri sərgisi, bugünkü Azərbaycandan bəhs edən fotoekspozisiya açılmışdır, xalq sənətkarlarının məmulatı nümayiş etdirilir.

### Kitab sədaqətli dostdur

Azərbaycan məktəblilərinin kitabla dostluğu haqqında Şıxəli Qurbanov adına Musiqili Komediya Teatrında çoxlu maraqlı məlumat almaq olardı. Orada gənc kitabsevərlərin II respublika toplanışının təntənəli açılışı olmuşdur. Mərasim "Kitab bilik mənbəyidir" devizi altında keçmişdir.

Toplanışı Azərbaycan SSR Kitabsevərlər Cəmiyyəti idarə heyəti sədrinin birinci müavini Z.Salahova açmışdır.

İndi bütün məktəblərdə gənc kitabsevərlər cəmiyyətinin üzvləri vardır. Respublikanın bütün guşələrindən gəlmiş uşaqlar toplanışda çıxış edərək öz işlərindən danışmışlar. Onlar hər il keçirilən "Yaşa kitab!" müsabiqələrində iştirak edirlər, məktəblərdə dərsliklərin ömrü uzadılan "kitab xəstəxanaları" yaradılmışdır, cildçi dərnəkləri fəaliyyət göstərir. Məktəblilər fəal oxucu olduqları kimi, həm də fəal kitab təbliğatçılarıdır. Onlar kitabxanalara kömək edir, ədəbi viktorinalar və müsabiqələr keçirir, tematik yığıncaqlar və yazıçılarla görüşlər təşkil edirlər.




Toplanışın açılışı günü ən yaxşı kitabsevərlər salondakıların alqışları altında səhnəyə dəvət edilmişlər. Azərbaycan SSR maarif naziri E.Q.Qafarova onlara kitabsevərlər cəmiyyətinin fəxri fərmanlarını təqdim etmişdir.

Fasilə zamanı foyedə uşaqlar orada göstərilən kitab kolleksiyalarına maraqla tamaşa etmiş, Səməd Vurğunun və Cəfər Cabbarlının ev-muzeylərinə baxdıqdan sonra aldıqları təəssüratı danışmış, sevimli yazıçılarından söz açmışlar.

Toplanışın iştirakçıları hədiyyə aldıqları maraqlı kitablarla və ənənəvi olacaq bu gözəl bayram haqqında parlaq, unudulmaz təəssüratla evlərinə qayıdırlar.

*"Kommunist" qəzeti, 11 noyabr 1983-cü il*

# COP29 muzeylərimizin tanıtımı üçün də mühüm fürsət oldu

11–22 noyabr tarixlərində Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) 200-dək ölkədən minlərlə qonağın iştirak etməsi Azərbaycanın zəngin tarixi-mədəni irsinin, incəsənətinin dünyaya bir daha tanıdılması üçün əlavə fürsət idi.





Xəbər verdiyimiz kimi, bu günlərdə paytaxtın aparıcı muzeylərinin də çoxsaylı ziyarətçiləri olub.

Milli Azərbaycan Tarixi Muzeyi də COP29 günlərində müxtəlif ölkələrdən ziyarətçi qəbul edib. Ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri və Petra Milli Trestinin sədri xanım Dana Firas da Milli Azərbaycan Tarixi Muzeyinin qonağı olub.

Direktor akademik Nailə Vəlixanlı qonağa muzeyin tarixi binası və kolleksiyası haqqında məlumat verib. O, muzeyin ekspozisiyasında nümayiş olunan arxeoloji nümunələrə, Orta əsrlərə aid sənət əsərlərinə, milli geyimlərə baxıb. Muzeylə tanışlığın onda böyük təəssürat doğurduğunu deyən xanım Firas fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Şahzadə Dana Firasa Azərbaycan xanımlarının milli baş örtüyü – kələğayı hədiyyə edilib.

COP29 çərçivəsində Azərbaycana gəlmiş Palau Respublikasının (Sakit okeanda Mikroneziya arxipelaqında kiçik ada-dövlət) Prezidenti Surangel Uipps də Milli Azərbaycan Tarixi Muzeyində olub.

Muzeydən bildirilib ki, qonağa yeni ekspozisiyada nümayiş olunan, Azərbaycanın zəngin tarixi və mədəni irsini əks etdirən eksponatlar barədə məlumat verilib, ölkəmiz haqqında kitab hədiyyə edilib. Muzeyin kolleksiyasında nümayiş etdirilən qədim arxeoloji tapıntılar, etnoqrafik materiallar qonağın marağına səbəb olub.

***

COP29-un qonaqlarının maraqla ziyarət etdiyi məkanlardan biri də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyidir. Bu günlərdə muzeyə gələnlər arasında Türkiyə Prezidenti Administrasiyası Kommunikasiya İdarəsinin əməkdaşları da olub.

Muzeyin direktoru akademik Rafael Hüseynov onları "İstiqlal zalı" ilə tanış edib, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının 1919–1920-ci illərdə bu binada fəaliyyətindən danışıb. Direktor Azərbaycan mətbuatının yaranması və 1875-ci ildə Həsən bəy Zərdabinin təşəbbüsü ilə "Əkinçi" qəzetinin nəşrindən söz açıb.

Qonaqlara akademik R.Hüseynovun mütəfəkkir şair İmadəddin Nəsimi haqqında yazdığı və dörd dildə nəşr edilən "Zamansız və məkansız", dahi şair Məhəmməd Füzulinin yaradıcılığından bəhs edən "Yoxdan var" kitabları, Məhsəti Gəncəvinin portret-oçerkinə və muzeydəki xalçalara dair açıqca dəstləri təqdim olunub.

Media nümayəndələri muzeyin ekspozisiyasında Azərbaycan milli mətbuatının tarixini əks etdirən "Əkinçi", "Kəşkül", ipək parça üzərində nəşr olunmuş "Həyat", "Nicat" qəzetləri, həmçinin 1906-cı ildə nəşr olunan "Molla Nəsrəddin" satirik jurnalının nüsxələri və digər eksponatlarla tanış olublar.

# Gözucu gördüklərim

## və ya Ankaraya bir də gedərəmsə...



Qarabağ savaşımızı, şanlı Zəfərimizi ehtiva edən "Köhnə çamadanlar" filminin Ankara premyerası haqqında (qəzetimizin 15 noyabr sayı) məlumat vermişdim. Qardaş ölkənin paytaxtı ilə bağlı təəssüratım o qədər zəngin və unudulmazdır ki, onları oxucularımızla daha ətraflı şəkildə bölüşmək istəyirəm.

Ankarada olarkən vaxtın azlığından şəhərdəki aparıcı muzeyləri tələm-tələsik gəzdim. Amma elə oradaca özümə söz verdim ki, qismət olsa, növbəti gəlişimdə bu qovhaqovun əvəzini çıxacağam...

Adamın bələdçisi, yol yoldaşı bilgili, işinin ustası olanda hər şey yağ kimi gedir. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Sanem Arıkanın bələdçiliyi və məsləhəti ilə ziyarətə Anadolu Mədəniyyətləri Muzeyi ilə başladım. Tikili ilk andan məni heyran elədi. Sözsüz ki, zəngin ekspozisiyası bu təəssüratı daha da möhkəmləndirdi. Paytaxtın ən yüksək bölgəsində – qədim Ankara qalasının ətəyində yerləşən muzey iki tarixi tikilidən – Mahmud paşa Bedesteni və Kurşunlu Handan ibarətdir.

Belə güman olunur ki, binalardan birini Osmanlı dönəmində baş vəzir olmuş Mahmud paşa Bedesteni 1464–1467-ci illərdə, digərini isə yenə həmin dövrün baş vəzirlərindən Məhmət paşa tikdirib. 1881-ci ildə baş verən güclü yanğından sonra tərk edilmiş hər iki bina illər sonra Anadolu ərazilərində tapılan tarixi eksponatları sərgiləmək üçün mülkiyyət sahibindən satın alınır. Uzun illər təmir-bərpa işləri gedən bina yalnız 1940-cı ildə istifadəyə yararlı vəziyyətə gətirilir. 1943-cü ildə isə bina muzey kimi qapılarını ziyarətçilərin üzünə açır.

Muzeydə Paleolit dövründən tutmuş günümüzədək insan əməyinin bəhrəsi olan tarixi əsərlər və digər maddi mədəniyyət nümunələri sərgilənir. Onu deyim ki, zəngin kolleksiyaları ilə dünyanın sayılıb-seçilən muzeyləri arasında yer alan Anadolu Mədəniyyətləri Muzeyində Anadolu arxeologiyası, Paleolit dövründən başlayaraq Osmanlı dövrünün tarixi məkanlarına qədər xronoloji ardıcıllıq var.

Sanem xanım deyir ki, muzeydə təqdim olunan kolleksiyalar Paleolit, Neolit və Tunc, qədim hit, Friq, Urartu krallığı, Lidiya dövrü və Miladdan öncə 1200-cü illərdən bu günümüzə qədər gəlib çatan tarixi məqamları əks etdirir. Ayrı-ayrı bölmələrdə Paleolit, Neolit, Çalolit, Köhnə Tunc, Assuriya Ticarət Koloniyaları, Köhnə Het, Het imperiyası, Frigiya, Urartu, Anadolu arxeologiyasının Lidiya dövrləri xronoloji ardıcıllıqla sərgilənir. Mərkəzində böyük hovuzu olan tikilinin bağçalı həyətində Anadolunun qədim mədəniyyətinə aid arxeoloji tapıntılar, daş heykəllər, küplər və digər nümunələr yer alıb.

***



Türkiyənin ilk dövlət muzeyi hesab olunan Ankara Tarix və Etnoqrafiya Muzeyi də şəhərin, ümumən ölkənin ən zəngin muzeylərindəndir.

Şəhərin hündür yerində "Namazgah" adlanan ərazidə Qurtuluş savaşı zamanı şiddətli döyüşlər gedib. Məlumata əsasən, döyüşdə şəhid olanların nəşi təpənin alt yamacındakı məzarlıqda dəfn olunub, təpənin üstündəki meydançada isə insanlar namaz qılarmış. Bu səbəbdən də təpə "Namazgah" adlanır. Yerli sakinlərin müqəddəsləşdirdiyi, haqqında müxtəlif rəvayətlər danışdığı ərazi müharibə başa çatandan sonra daha çox ziyarət olunmağa başlayıb. Elə bu səbəbdən muzey binasının burada tikintisinə qərar verilib.

Bir müddət sonra tikilən və ekspozisiyası qurulan binanı 1928-ci il aprel ayının 15-də ziyarət edən Mustafa Kamal Atatürk tikilini muzey elan edir. Muzeydə Anadolunun tarixini əks etdirən əsərlər, əl sənətləri, geyim və xalılar və s. əl işləri nümayiş olunur. Osmanlı dövründə məşhur olan xəttatlıq və əl işləri sənəti ilə bağlı nümunələr də muzeydə yer alır.

Bu binanın mənəvi əhəmiyyəti isə, sözsüz ki, Mustafa Kamal Atatürkün nəşinin uzun müddət burada qalması ilə bağlıdır. Məlum olduğu kimi, Atatürk vəfat edən vaxt indiki Anıtqəbir yox idi və onun nəşi düz 15 il (1938-1953) məhz bu muzeyin binasında mühafizə edilib. Muzeyin giriş hissəsinin foyesi Atatürkə hörmət əlaməti olaraq simvolik qəbir şəklindədir.

Muzeyin birinci mərtəbəsində qiymətli sənət əsərlərinin sərgiləndiyi salonlar, ikinci mərtəbədə isə əsasən inzibati otaqlar yerləşir.

Muzeyin diqqətçəkən eksponatları arasında XV əsrdən qalma Məmlük qazanları, Osmanlı şərbət qazanları, ləyən, sini, qəhvə qabları, qayçılar və s. məişət əşyaları da var.

Girişin sol tərəfindəki salonlarda əsasən çini və şüşə qablar, Osmanlı dövrü xəttatlıq nümunələri, Səlcuqlular və Bəyliklər dönəminə aid taxta üzərində oyma işləri sərgilənir. Sonuncu ekspozisiya zalında isə üstü oyma naxış və ərəb əlifbasında yazılarla bəzədilmiş məzarüstü, eləcə də məscid minbərləri qorunur. Osmanlı zamanına aid yay və oxlar, çaxmaqlı tapançalar, tüfənglər, qılınc və digər silah çeşidləri, üzərinə Sultan II Mahmudun gerbi işlənmiş atlas parçalar xüsusi maraq doğurur. Səlcuqlu sultanı III Keyxosrovun taxtı (XIII əsr), Taşhur paşa məscidinin mehrabı (XII əsr), Çələbi Sultan mədrəsəsinin qapısı (XV əsr) muzeyin dəyərli eksponatlarındandır.



Bələdçidən muzeydə sərgilənən ən qədim eksponat xəbər alıram. O, üzərində kiçik nar fiquru təsvir olunmuş gülab qabını göstərir və əşyanın X əsrə aid olduğunu deyir.

Ümumiyyətlə, bu muzeydə sərgilənən nümunələr arasında oyma və xəttatlıq nümunələri daha çox gözə dəyir.

***

Ankara Tarix və Etnoqrafiya Muzeyinin binası ilə yan-yana Namazgah təpəsində yerləşən daha bir muzeyə baş çəkirik. Dövlət Rəsm və Heykəl Muzeyi də turistlərin maraq göstərdiyi məkanlardandır.

1927–1930-cu illər arasında memar Arif Hikmət Koyunoğlunun layihəsi əsasında Türk Ocaqlarının Baş Qərargahı üçün tikilmiş bina 1932-ci ildə Ankara Xalq Evi olaraq xidmətə başlayır.

Türk motivləri ilə bəzədilmiş 500 nəfərlik salonda zamanında opera tamaşaları oynanılıb. 1980-ci ildən muzey kimi fəaliyyət göstərən bina bir neçə il öncə əsaslı təmir-bərpa edilib.

Muzeyin salonlarındakı ekspozisiya sıralaması da maraqlıdır. Məsələn, burada həm rəqəmsal, həm də fotoları çəkilərək arxivləşdirilən, hazırda nümayişə çıxarılmış mövcud rəsm əsərləri əsərin tarixiliyinə, xarakter xüsusiyyətlərinə görə yerləşdirilib. Bu mənada, klassik rəsmlər giriş, postmodern rəsmlər isə sonuncu salondadır. Başqa bir məqam ekspozisiya zallarının hər birinin ayrı-ayrı məşhur türk fırça ustalarının şərəfinə adlandırılmasıdır.

Məlumat üçün əlavə edim ki, muzeyin hazırda ziyarətçilərin üzünə açıq olan 6 salonunda 750 əsər nümayiş etdirilir. Ümumilikdə isə muzeydə 3629 fərqli əsər qorunur.

Binanın ikinci mərtəbəsinə qalxırıq. Dövrün ovqatını saxlayan, görüş və toplantıların keçirildiyi otaqlar, eləcə də 500 nəfərlik tamaşaçı zalı, iri, dərin səhnəsi, lojası olan, teatr binası assosiasiyası yaradan bu mərtəbə turistlərin marağını daha çox cəlb edir. Salonun qırmızı xalılar sərilmiş döşəməsi, tünd-şabalıd rəngdə oturacaqları, oyma naxışlı, qızılı tağlarla əhatələnmiş divarları, lojaları, tavanı, səhnənin solunda qoyulmuş fortepiano klassik teatr ovqatı yaradır. İnsan özünü ötən əsrin əvvəllərində hiss edir.

Bələdçi deyir ki, məkanın üslubu və əşyalar ilk vaxtdakı kimi qorunub saxlanılıb. Buradakı lojalardan biri isə sakral hesab olunur. Dəyirmi masa və ətrafına qoyulmuş bir neçə stul qiymətli tarix yadigarıdır. Çünki vaxtilə Atatürk burada oturaraq bir sıra opera tamaşalarını izləyərmiş. O vaxtdan da onun xatirəsinə ehtiram olaraq həmin stullarda heç kim oturmayıb...

Sonda onu da deyim ki, Ankarada ayrı-ayrı qurumlara tabe ümumilikdə 16 muzey var. Bunların sırasında mənzil-muzey və universitet muzeyləri də yer alır.

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 23 – 26 noyabr

### Azərbaycan

**23 noyabr 1923** – Yazıçı, şair Əmrah Bala oğlu Əmrahov (1923–1988) Bakının Kürdəxanı kəndində anadan olub. Kitabları: "Ürək vətən üçün döyünəndə", "Ulduzlar gecə parlar", "Dağ bənövşəsi" və s.

**23 noyabr 1927** – Tarixçi, şərqşünas, professor Əhməd Əhməd oğlu İsgəndərov (1927–2017) Bakının Mərdəkan kəndində doğulub. Moskvada yaşayıb, SSRİ EA-nın Ümumi Tarix İnstitutunda baş elmi işçi, direktor müavini, "Tarix məsələləri" jurnalının baş redaktoru işləyib. Rusiyanın Əməkdar elm xadimi, Rusiya EA-nın müxbir üzvü olub.

**23 noyabr 1936** – Ədəbiyyatşünas, yazıçı-dramaturq, professor Aqşin Əlisəttar oğlu Babayev (1936 – 10.6.2020) Bakıda anadan olub. Türk ədəbiyyatına dair tədqiqatların, "Ayrılıq", "Dünyanın axırı" və s. kitabların, tərcümələrin müəllifidir.

**23 noyabr 1937** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (1937 – 3.11.1997) Gəncə şəhərində anadan olub. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**23 noyabr 1948** – Dahi bəstəkar, publisist, pedaqoq, SSRİ Xalq artisti Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (18.9.1885 – 1948) vəfat edib. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın, ilk musiqili komediyanın müəllifidir. Azərbaycan EA-nın akademiki olub.

**23 noyabr 1999** – Xalq artisti, görkəmli teatr və kino aktrisası Leyla Ağalar qızı Bədirbəyli (8.1.1920 – 1999) vəfat edib. Dövlət mükafatı laureatı olub.

**23 noyabr 2011** – Prezident İlham Əliyev tanınmış ictimai xadim, publisist, Əməkdar jurnalist Nəsrulla İmanquliyevin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**24 noyabr 1906** – Ədəbiyyatşünas Əli Nazim (Ələkbər Mahmud oğlu Mahmudzadə; 1906 – 23.8.1941) Təbrizdə doğulub. Repressiya qurbanı olub.

**24 noyabr 1922** – Əməkdar artist, vokalçı Rəhilə Muxtar qızı Cabbarova (1922 – 2.12.2002) Tiflisdə doğulub. Opera və Balet Teatrının solisti olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**24 noyabr 1924** – Əməkdar incəsənət xadimi, rəssam Vəcihə Əli qızı Səmədova (1924 – 24.10.1965) anadan olub. Tanınmış şəxsiyyətlərin portretlərinin, mənzərə və tematik tabloların müəllifidir.

**24 noyabr 1934** – Azərbaycan Dövlət Teatr Muzeyinin açılışı keçirilib. Azərbaycan Dövlət Muzeyinin müvafiq şöbəsinin bazasında yaradılan muzeyə tanınmış teatr xadimi Ağakərim Şərifov direktor təyin olunmuşdu. 1935-ci ildə muzeyə böyük dramaturq Cəfər Cabbarlının adı verilib.

**24 noyabr 1997** – Prezident Heydər Əliyev Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**24 noyabr 2015** – Prezident İlham Əliyev Azərbaycan Milli Ensiklopediyasının 50 illik yubileyi haqqında sərəncam imzalayıb. "Azərbaycan Ensiklopediyası" baş redaksiyası 1965-ci ildə yaradılmış, oncildlik "Azərbaycan Sovet Ensiklopediyası" 1976–1987-ci illərdə nəşr olunmuşdu.

**24 noyabr 2001** – Əməkdar incəsənət xadimi, aktyor, sirk ustası Siyavuş Məmməd oğlu Şəfiyev (1.9.1937 – 2001) vəfat edib.

**25 noyabr 1909** – Əməkdar artist Fateh Mirzə Möhsün oğlu Fətullayev (1909 – 4.5.1983) Lənkəranda anadan olub. Musiqili Komediya, Akademik Dram və digər teatrlarda çalışıb, "Ögey ana" (Arif), "Bir məhəlləli iki nəfər" və s. filmlərdə çəkilib.

**25 noyabr 1913** – Memar, Əməkdar inşaatçı Nəsrulla Yaqub oğlu Kəngərli (1913–1991) anadan olub.

**25 noyabr 1918** – Xalq yazıçısı, Dövlət mükafatı laureatı İmran Həşim oğlu Qasımov (1918 – 20.4.1981) Bakıda doğulub. "Uzaq sahillərdə" (H.Seyidbəyli ilə birgə) povesti, "Dairəni genişləndirin", "Sən nə üçün yaşayırsan?" pyesləri və s. əsərlərin, kinossenarilərin ("İnsan məskən salır", "Onun böyük ürəyi") müəllifidir. Yazıçılar İttifaqının birinci katibi (1975–1981) olub.

**25 noyabr 1935** – Əməkdar artist, xanəndə Qaraxan İmran oğlu Behbudov (1935 – 17.11.2020) Ağdam rayonunun Əfətli kəndində anadan olub.

**25 noyabr 1961** – Xalq artisti, vokalçı Əli Rəhim oğlu Əsgərov (1961 – 23.2.2023) anadan olub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, opera festivallarının laureatı, Bülbül adına Vokalçıların I Beynəlxalq Müsabiqəsinin (1997) Qran-pri mükafatçısı olub.

**25 noyabr 1981** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Nazirlər Soveti Hüseyn Cavidin ev-muzeyinin yaradılması haqqında qərar qəbul edib. Qərarın icrası uzun müddət ləngidi və ədibin 1920–1937-ci illərdə yaşadığı binadakı (hazırda AMEA Əlyazmalar İnstitutu) mənzilin muzeyə çevrilməsi 1995-ci ildə Prezident Heydər Əliyevin göstərişi ilə həllini tapdı.

**25 noyabr 1994** – Xalq artisti Məhəmməd İsmayıl oğlu Burcəliyev (25.4.1914 – 1994) vəfat edib. Gəncə Dövlət Dram Teatrının aktyoru olub, teatrda direktor işləyib, tamaşalara quruluş verib. Filmlərdə çəkilib.

**25 noyabr 2015** – Prezident İlham Əliyev tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Hüseynlinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**25 noyabr 2016** – Prezident İlham Əliyev Azərbaycanda "Xalçaçı günü" peşə bayramının təsis edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, 5 may "Xalçaçı günü" elan edilib.

**26 noyabr 1927** – Dilçi-türkoloq, professor, Əməkdar elm xadimi Həsən İbrahim oğlu Mirzəyev (1927–2015) Qərbi Azərbaycanın (indiki Ermənistan) Dərələyəz mahalının Qovuşuq kəndində anadan olub.

**26 noyabr 1928** – Əməkdar artist Müxlis Sabir oğlu Cənizadə (1928 – 11.12.1972) Bakıda anadan olub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb. "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**26 noyabr 1937** – Şair, aşıq Mirzə Bilal Mustafa oğlu Mikayılov (1872–1937) repressiya edilərək güllələnib. Ağsu rayonunda Qəşəd kəndində anadan olub.

### Dünya

**23 noyabr 1875** – Rus yazıçısı, sənətşünas, publisist Anatoli Vasilyeviç Lunaçarski (1875-1933) anadan olub.

**23 noyabr 1933** – Polyak bəstəkarı və dirijoru Kşiştof Penderecki (Krzysztof Penderecki; 1933 – 29.3.2020) anadan olub.

**24 noyabr 1632** – Niderland filosofu, rasionalizm cərəyanının tanınmış nümayəndəsi Benedikt Spinoza (Benedictus de Spinoza; 1632–1677) anadan olub.

**24 noyabr 1934** – Rusiya (alman əsilli) bəstəkarı, pianoçu və musiqi nəzəriyyəçisi Alfred Şnitke (1934–1998) anadan olub.

**25 noyabr 1562** – İspan yazıçı-dramaturqu, şair Lope de Veqa (Felix Lope de Vega y Carpio; 1562–1635) anadan olub.

**25 noyabr 1889** – Türk yazıçı-dramaturqu Rəşad Nuri Güntəkin (1889–1956) anadan olub. "Çalıquşu", "Dodaqdan qəlbə", "Yarpaq tökümü" və s. romanları əsasında populyar filmlər çəkilib.

**26 noyabr 1857** – İsveçrəli dilçi alim, semiologiya və struktur linqvistikasının banisi Ferdinand de Sossyur (Ferdinand de Saussure; 1857–1913) anadan olub.

**26 noyabr 1909** – Rumın dramaturqu, absurd teatrı estetik cərəyanının banisi Ejen İonesko (Eugene Ionesco; 1909–1994) anadan olub. Pyesləri: "Daz müğənni", "Dərs", "Stullar", "Təmənnasız qatil", "Çamadanlı adam" və s.

**26 noyabr 1939** – Amerika müğənnisi, aktrisa Tina Terner (Tina Turner – əsl adı Anna Mae Bullock; 1939 – 24.5.2023) anadan olub. Dəfələrlə "Qremmi" mükafatına layiq görülüb. Ömrünün son illərində İsveçrə vətəndaşlığı alaraq bu ölkədə yaşayıb.

**Hazırladı: V.Orxan**

№87 (2152)
22 noyabr 2024
www.medeniyyet.az

# Sankt-Peterburqda Üzeyir bəyin, Bakıda Şostakoviçin heykəlləri qoyulacaq

Rusiyanın Sankt-Peterburq şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin abidəsinin qoyulması üzrə işlər davam etdirilir. Musiqiçinin anadan olmasının 140 illiyinin qeyd olunacağı 2025-ci ilin sentyabrında heykəlin açılışı planlaşdırılır.

Bakıda isə böyük rus bəstəkarı Dmitri Şostakoviçin abidəsinin ucaldılması nəzərdə tutulur. Hazırda onun üçün yer müəyyənləşdirilir.

Bu barədə Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayevin Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov ilə görüşündə söhbət açılıb.



Sankt-Peterburq Administrasiyasının yaydığı məlumata görə, qubernator azərbaycanlı diplomatı yeni təyinatı münasibətilə təbrik edərək bildirib ki, Rusiya-Azərbaycan əməkdaşlığının geniş spektri Sankt-Peterburqla ölkəmiz arasında əlaqələrdə də özünü göstərir. O, bu ilin aprel ayında Sankt-Peterburqun mədəniyyət və işgüzar dairələrin nümayəndə heyətinin Azərbaycana səfərindən bəhs edib. Bildirib ki, səfər zamanı Sankt-Peterburq və Azərbaycan arasında 2024–2028-ci illər üçün əməkdaşlığa dair Yol xəritəsi imzalanıb.

Rəhman Mustafayev də Sankt-Peterburqun Azərbaycan üçün prioritet regionlardan biri olduğunu, o cümlədən humanitar əlaqələrdə Rusiyanın mədəniyyət paytaxtı kimi Sankt-Peterburqun mühüm rolunu vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan və Sankt-Peterburq ənənəvi olaraq ali təhsil sahəsində də qarşılıqlı fəaliyyət göstərir. İki ölkə prezidentlərinin təşəbbüsü ilə Sankt-Peterburq Dövlət Universitetinin nümayəndəliyi və Azərbaycanın aparıcı universitetlərindən birinin bazasında Rusiya-Azərbaycan birgə universitetinin yaradılması nəzərdə tutulur.

Digər mühüm sahə gənclər siyasətidir. Şəhər rəhbəri Sankt-Peterburqun tətil günlərində Bakıdan gələn məktəbliləri qəbul etməyə hazır olduğunu vurğulayıb, ən yaxşı məzunları ənənəvi "Al yelkənlər" bayramına dəvət edib.

Diqqətə çatdırılıb ki, ötən il Bakıda "Sankt-Peterburq Teatr Fəsilləri" festivalı uğurla keçirilib. Bu ilin dekabrında azərbaycanlı sənətçilərin – Beynəlxalq Muğam Mərkəzi heyətinin Sankt-Peterburq Dövlət Akademik Kapellasında çıxışı gözlənilir.

# Ən böyük mərcan Sakit okeandadır...

Tədqiqatçılar Sakit okeanın cənub-qərbində dünyanın ən böyük mərcanını aşkar ediblər.



Çin mediası xəbər verir ki, mərcanın diametri 32 metr, hündürlüyü 5,5 metrdir. O, "National Geographic Pristine Seas" komandasının dəniz alimləri tərəfindən Solomon adalar qrupunun yaxınlığında aşkarlanıb. Alimlərin sözlərinə görə, mərcan təxminən 1 milyard polip şəbəkəsindən ibarətdir, yaşı isə 300-500 il diapazonu arasındadır.

"National Geographic" tədqiqatçısı Enrik Sala tapıntını mühüm elmi kəşf adlandırıb. Komanda mərcanın yaxşı vəziyyətdə olduğunu bildirsə də, onun qlobal istiləşmənin təsirlərinə məruz qaldığı barədə xəbərdarlıq edib.

Sonrakı araşdırmalar göstərib ki, mərcan bir neçə dəniz heyvanı növü üçün mühüm sığınacaq və çoxalma yeridir.

# ...ən böyük bina isə Ər-Riyadda olacaq

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda dünyanın ən böyük binasının tikintisinə başlanılır.

Tikintisi 50 milyard dollara başa gələcəyi gözlənilən bina "The Mukaab" adlanır.

Kompleksin hündürlüyü 396 metr, eni 365 metr olacaq. Binada ticarət platformalarının, ofislərin və restoranların, habelə 104 min yaşayış və 9 min hotel otağının olması planlaşdırılır.

Səudiyyə mənbələrinin məlumatına görə, binanın tikintisi 2030-cu ilə qədər tamamlanacaq. Binanın xarici divarları mənzərələri əks etdirmək üçün virtual reallıq texnologiyası ilə təchiz olunacaq. İnteryerdə süni intellektlə işləyən nəhəng holoqrafik proyeksiyalar olacaq.

# Dadlı, təmiz və sağlam qidalanma: COP29-da "Slow Food"

Xəbər verdiyimiz kimi, COP29 çərçivəsində turizm və iqlim mövzusunda tədbirlər də keçirilib. Noyabrın 19-da COP29-da "Slow Food: yerli aqroməhsullarla dayanıqlı turizmin inkişafı" adlı panel müzakirəsi təşkil edilib.

Azərbaycan Turizm Bürosu idarə heyətinin sədri Florian Zenqstşmidin moderatorluğu ilə keçirilən paneldə kənd təsərrüfatı və turizmin dayanıqlı inkişafa dəstək verən əməkdaşlığı haqqında fikir mübadiləsi aparılıb.

Dövlət Turizm Agentliyinin tabeliyindəki Qoruqları İdarəetmə Mərkəzi Qastronomiya şöbəsinin müdiri Səkinə Əsgərova Azərbaycanın "Slow Food" təcrübəsi ilə bağlı təqdimatla çıxış edib.

Müzakirə iştirakçıları "Slow Food" hərəkatı və prinsiplərinin dünya turizminə inteqrasiyası, dayanıqlı aqro və qastroturizm modellərinin qurulması, yerli aqroməhsulların turizmə töhfəsi kimi mövzularda təcrübə və təkliflərini bölüşüblər.

Qeyd edək ki, COP29 günləri çərçivəsində Mavi zonada yerləşən Azərbaycan pavilyonunda "Slow Food" haqqında təqdimat keçirilib və qonaqlara Azərbaycanın biomüxtəliflik nümunələri əsasında hazırlanmış qastroturizm məhsulları təqdim olunub.

"Slow Food" (ingiliscə "yavaş yemək") dadlı, təmiz və sosial ədalətlilik prinsiplərinə əsaslanan sağlam qidalanma, milli və regional mətbəxlərin ənənələrini qoruyub saxlayan bir yanaşmadır.

# 121,2 milyon dollara "İşıq imperiyası"

Belçikalı sürrealist rəssam Rene Maqrittin (1898–1967) "İşıq imperiyası" tablosu Nyu-Yorkda "Christie's" hərracında 121,2 milyon dollara satılıb.



Məlumatlara görə, bu, ilin əvvəlindən bəri satılan sənət əsərləri üçün rekord qiymətdir. Maqritt tərəfindən 1954-cü ildə çəkilmiş tablonu anonim şəxs (telefonla əlaqə saxlayaraq) alıb.

"İşıq imperiyası" ağaclarla əhatə olunmuş evləri təsvir edən eyniadlı 17 rəsm əsəri silsiləsidir. Səciyyəvi cəhəti ondan ibarətdir ki, evlər və ağaclar gecə işığında, onların üzərindəki səma isə gündüz işığında çəkilib. "Christie's" tərəfindən satılan tablo bu silsilənin ən böyüyüdür.

2022-ci ildə rəssamın bu seriyadan daha bir əsəri Londonda "Sotheby's" hərracında 79,8 dollara satılmışdı.

# Azərbaycanlı dirijor Latviyada opera tamaşasını idarə edib

Latviya Milli Opera və Balet Teatrının səhnəsində Azərbaycan və Latviya arasında diplomatik münasibətlərin 30 illiyi münasibətilə C.Puççininin "Toska" operasının tamaşası nümayiş olunub.



Azərbaycanın Latviyadakı Səfirliyinin dəstəyi ilə gerçəkləşən sənət axşamında orkestri Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru Əməkdar artist Əyyub Quliyev idarə edib.

Səfirlikdən bildirilib ki, anşlaqla keçən tamaşada solistlərin ifaları alqışlarla qarşılanıb. Tamaşaçılar arasında Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov, Azərbaycan-Latviya Hökumətlərarası Komissiyasının Latviya tərəfindən həmsədri, kənd təsərrüfat naziri Armands Krauze, Latviya Seyminin komitə sədrləri, dövlət qurumlarının rəsmiləri, xarici diplomatlar da olublar.

# ABŞ-nin federal səhiyyə xidmətlərinə türk doktor rəhbərlik edə bilər

Birləşmiş Ştatların yeni seçilmiş prezidenti Donald Tramp federal səhiyyə xidmətləri olan "Medicare" və "Medicaid"in direktoru vəzifəsinə türk doktor Mehmet Özün namizədliyini irəli sürdüyünü açıqlayıb.




ABŞ-nin ciddi bir səhiyyə böhranı ilə üzləşdiyini qeyd edən Tramp bildirib ki, bu problemlərlə məşğul olmaq üçün Mehmet Öz ən yaxşı mütəxəssisdir. O, türk doktorun Harvard Universiteti ilə başlayan təhsil həyatına və karyerasına da toxunub.

Qeyd edək ki, ürək-damar cərrahı olan və televiziyalarda çıxışları ilə də tanınan Mehmet Öz Trampın dəstəyi ilə 2022-ci ildə Pensilvaniyadan Senata namizəd olsa da, uğur qazana bilməyib.

Xatırladaq ki, "Medicare" ABŞ-də 65 yaşdan yuxarı yaşlılara tibbi xidmət göstərən federal tibbi sığorta proqramı, "Medicaid" isə aşağı gəlirli insanları tibbi sığorta ilə təmin edən federal dövlət proqramıdır. 2023-cü ildə "Medicare"nin büdcəsi 848 milyard dollar, "Medicaid"ə ayrılan dövlət vəsaiti isə 860 milyard dollar olub.

# Almaniya beynəlxalq iqlim fonduna daha 60 milyon avro ayıracaq

Almaniya iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə yardım etmək üçün beynəlxalq iqlim fonduna əlavə 60 milyon avro vəsait ayıracaq.


Menü
ZEIT ONLINE
Abo testen
Weltklimakonferenz
**Deutschland gibt weitere 60 Millionen für Klimaschutzfonds**
Die Bundesregierung stellt weitere Millionen für einen Klimafonds bereit. Daraus sollen Hilfen für die vom Klimawandel besonders betroffenen Länder finanziert werden.
Aktualisiert am 19. November 2024, 15:28 Uhr Quelle: ZEIT ONLINE, dpa, iyf
3 Min. 6


Bu barədə Bakıda keçirilən COP29-da Almaniyanın Ətraf Mühit və Xarici İşlər nazirlikləri birgə məlumat yayıb.

Alman mediasının məlumatına görə, Almaniya itki və zərərlərlə mübarizədə ən böyük donordur. Bu ölkə 2010-cu ildən etibarən İtki və Zərərlərə Cavab Fondunun layihələrinə, o cümlədən inkişaf etməkdə olan ölkələrə ən həssas icmalarında 45 milyondan çox istifadəçiyə xidmət göstərən 180-dən artıq layihəyə ümumilikdə 1,2 milyard dollar ayırıb.

Bildirilir ki, COP29-da müzakirələrin başlıca məqsədi iqlim dəyişmələrinin təsirlərinə qarşı mübarizə üçün qlobal fondun formalaşmasıdır. BMT ekspertlərinin fikrincə, qlobal istiləşməyə uyğunlaşmaq və onun nəticələrini aradan qaldırmaq üçün inkişaf etməkdə olan ölkələrə hər il təxminən 1,3 trilyon dollar lazımdır.

## Xronoqraf

**22 noyabr** Azərbaycan ədliyyə işçilərinin peşə bayramı günüdür. Bu günün tarixi 22 noyabr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası tərəfindən Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edilməsi ilə bağlıdır.

# Tarixdə bu gün

Olaylar, faktlar (22 – 26 noyabr)



### 131 il əvvəl...



**25 noyabr 1893-cü ildə** türk mədəniyyəti tarixində mühüm hadisə baş verib. Danimarkalı alim Vilhelm Tomsen qədim türk mədəni abidəsi olan Orxon-Yenisey daş kitabələrindəki yazıları oxuduğunu bildirib. İlk olaraq "Tanrı" və "türk" sözlərini oxumağa müvəffəq olan alim qədim türk yazı mədəniyyəti və əlifbası barədə kəşfi ilə dünya elminə dəyərli töhfə verib.

### 100 il əvvəl...

**26 noyabr 1924-cü ildə** Monqolustan Xalq Respublikasının yarandığı elan edilib. Monqolustan Xalq Xuralı (nümayəndəlvalər məclisi) ölkənin ilk Konstitusiyasını qəbul edib.

### 90 il əvvəl...

**24 noyabr 1934-cü ildə** Türkiyə Böyük Millət Məclisi Cümhurbaşqanı Qazi Mustafa Kamala Atatürk soyadının verilməsi haqqında qanun qəbul edib.

### 81 il əvvəl...

**22 noyabr 1943-cü ildə** Livan müstəqilliyini elan edib. XVI əsrdən 1918-ci ilədək Osmanlı imperiyasının tərkibində olan Livan daha sonra Fransanın mandatı altına keçmişdi. Müstəqilliyin ilk dövrü Livanda xristian-müsəlman toqquşmaları, 1975–1990-cı illər vətəndaş müharibəsi ilə müşayiət olunub. Konfessiyalararası razılaşmaya görə, ölkədə prezident xristian, baş nazir müsəlman-sünni, parlamentin sədri müsəlman-şiə olmalıdır.

### 75 il əvvəl...



**22 noyabr 1949-cu ildə** Sumqayıt şəhərinin yarandığı gündür. Xəzər sahilində yeni şəhərin salınması 1938-ci ildə burada istilik elektrik stansiyasının tikintisi ilə başlanıb. 40-cı illərdə kimya və metallurgiya zavodlarının təməli qoyulub. Şəhərin tikintisində Sovet İttifaqı respublikalarından inşaatçı dəstələr iştirak edib. 1949-cu il noyabrın 22-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sumqayıta şəhər statusu verilib.

### 61 il əvvəl...

**22 noyabr 1963-cü ildə** ABŞ-nin Texas ştatının Dallas şəhərində Prezident Con Fitscerald Kennedi qətlə yetirilib. ABŞ-nin 35-ci prezidenti növbəti seçki kampaniyasında iştirak etmək üçün Dallasa gəlmişdi. Prezidenti üç atəşlə qətlə yetirən ABŞ dəniz piyadası Li Osvald iki gün sonra həbsxanaya aparılarkən Kennedinin pərəstişkarı Cek Rubi tərəfindən öldürüldü.

### 49 il əvvəl...

**25 noyabr 1975-ci ildə** Niderlandın Cənubi Amerikadakı müstəmləkəsi (XVII əsrdən) olan Surinam dövlət müstəqilliyini elan edib.

### 21 il əvvəl...

**23 noyabr 2003-cü ildə** Gürcüstanda parlament seçkiləri (2 noyabr) ilə bağlı etiraz aksiyaları Prezident Eduard Şevardnadzeni istefa verməyə məcbur edib. Mixail Saakaşvili və silahdaşları "məxməri inqilab"la hakimiyyətə gəliblər. Seçkilərin nəticələri ləğv olunub. 2004-cü ilin yanvarında növbədənkənar prezident seçkilərində Saakaşvili, mart ayında yeni parlament seçkilərində isə onun tərəfdarları qalib gəliblər.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2704
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641